


## “Şuşada tədbirlərin keçirilməsi həm də dünyaya verilən sülh mesajıdır”

11



## Mətbuata dövlət dəstəyi: Nəyi dəyişə bilər?

15

# Səs

№ 085 (6526) 17 may 2022-ci il. Qiyməti 60 qəpik



# Türkiyə-Azərbaycan Liderlərinin və xalqlarının sarsılmaz birliyinin növbəti nümayişi!

3

# Ermənistanın anklav iddiaları: bu ölkə özünü ölümə sürükləyir!




Və bu yerdə Stivensonun əla bir kəlamı yada düşür

10



8

## “AZƏRİŞIQ” azad edilmiş torpaqlarımızı nura boyayır



6

## Şuşanı görən hər kəs heyrətlənir



11

## 17 May Ümumdünya İnformasiya Cəmiyyəti Günüdür

# “5-ci kolon" LGBT bayrağı altına keçdi!

*Və ya "Fəvvarələr meydanında" siyasi-cinsi azlıq şousu necə fiaskoya uğradı?*




13

## “Xarıbülbül” Festivalından REPORTAJ




## Bakıda “Küləyə qalib gəl” şüarı altında marafon keçirilib



# Ölkələrimiz arasında əlaqələr bütün sahələrdə uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Bakıdakı səfirliyində olub*




**Prezident İlham Əliyev mayın 16-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdəki səfirliyində olub, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verib.**

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikasındakı səfiri Məhəmməd Əl Bluşi dövlətimizin başçısını qarşılayıb. Sonra Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazıb. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar bir daha başsağlığı verən Prezident İlham Əliyev məhz onun səyləri nəticəsində bu gün BƏƏ-nin sürətli inkişafa nail olduğunu xüsusi vurğulayıb. Eyni zamanda, yeni Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəhbərliyi ilə də ölkənin bu inkişaf yolunu davam etdirəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla dostluq və qardaşlıq münasibətlərinin əməkdaşlığın daha da genişlənməsi işinə öz töhfəsini verəcəyini bildirib.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi səfirliyə gələrək Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı verməsinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib və bunu ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təzahürü kimi dəyərləndirib. Səfir əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirib. Məhəmməd Əl Bluşi münasibətlərimizin inkişafında dövlətimizin başçısı ilə BƏƏ-nin yeni Prezidenti arasındakı şəxsi əlaqələrin xüsusi rolunu qeyd etdi.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev ”Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2516 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev ”Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2555 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam verib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# “Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətləri bütün istiqamətlərdə uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, ilk növbədə siyasi sahədə uğurla inkişaf etdiyini vurğulayıb, bu işdə iki ölkənin dövlət başçıları arasında münasibətlərin xüsusi önəm daşıdığını qeyd edib və bu baxımdan Özbəkistana səfərini məmnunluqla xatırlayıb. Prezident İlham Əliyev tarixi, dil və mədəni yaxınlığın münasibətlərimizin möhkəmlənməsi üçün əsas yaratdığını da bildirib.

İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı ticarət dövriyyəsinin səviyyəsinin artırılmasının önəmini qeyd edib və bunun üçün yaxşı imkanların olduğunu vurğulayıb. Həm Azərbaycanda, həm də Özbəkistanda nəqliyyat infrastrukturu sahəsində böyük işlərin görüldüyünü deyən Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi və nəqliyyat dəhlizlərinin tam şəkildə işə salınması üçün perspektivlərin mövcud olduğunu bildirib. Prezident İlham Əliyev Azərbaycanın və Özbəkistanın qanunverici orqanları arasındakı münasibətlərə toxunaraq, qarşılıqlı səfərlərin və beynəlxalq parlamentlərarası strukturlardakı əlaqələrimizin bu sahədə əməkdaşlığa töhfə verdiyini bildirib.



Türk Dövlətləri Təşkilatında əməkdaşlıq məsələlərinə toxunan dövlətimizin başçısı bu təşkilat çərçivəsində iş birliyimizin ölkələrimizin qardaşlığı və tarixi dostluğundan, mədəni köklərdən irəli gələrək təbii əməkdaşlıq xarakteri daşıdığını vurğulayıb və bu baxımdan Özbəkistanın bu təşkilata tamhüquqlu üzv olmasının önəmini qeyd edib.

Prezident İlham Əliyev digər beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də uğurlu əməkdaşlığın və ölkələrimizin qarşılıqlı dəstəyinin önəmini qeyd edib.

Azərbaycanın beynəlxalq əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə yaxşı münasibətlərə malik olduğunu vurğulayaraq, Azərbaycan tərəfinin Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif etdiyini bir daha xatırlatdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Nurdinjon İsmoilov, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Eyni zamanda, o, Özbəkistanın dövlət başçısının 28 May - Müstəqillik Günü ilə bağlı təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi. Nurdinjon İsmoilov Şavkat Mirziyoyevin Prezident İlham Əliyevin Özbəkistana səfərini gözlədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədri Bakıda gördüyü inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını qeyd etdi və ölkəmizin qazandığı nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

# TÜRKİYƏ-AZƏRBAYCAN

## Liderlərinin və xalqlarının sarsılmaz birliyinin növbəti nümayişi!





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mayın 14-də qardaş ölkəyə işgüzar səfəri, dövlət başçılarının Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etməsi Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" reallığın təcəssümüdür.***

### "BÜTÜN BUNLAR TÜRKİYƏNİN İNKİŞAFINI, GÜCÜNÜ GÖSTƏRƏN AMİLLƏRDİR"

"Bütün türk qardaşlarımızı səmimi qəlbdən salamlayıram. Azərbaycandan hərarətli salamları ifadə edirəm. İlk növbədə, hörmətli qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu mərasimə dəvət etdiyi üçün təşəkkürümü bildirirəm. Bu gözəl hava limanının açılışı münasibəti ilə sizi ürəkdən təbrik edirəm". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Rize-Artvin Hava Limanının açılışında Azərbaycan Prezidenti İlham Əliyev deyib. Dövlət başçısı qeyd edib ki, bu hava limanının açılışı Türkiyədə gedən çox uğurlu prosesin təzahürüdür: "Qardaş Türkiyə gündən-günə sürətlə inkişaf edir. Bütün bunların təməlində aparılan siyasətin, əziz qardaşımın böyük əməyi var. Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda ölkə daxilində də böyük layihələr həyata keçirməyə qadirdir. Bunlar arasında xüsusi ilə insanlara xidmət göstərən layihələri qeyd etmək istərdim. Hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar - bütün bunlar Türkiyənin inkişafını, gücünü göstərən amillərdir".

### "RİZE-ARTVİN AEROPORTUNUN AÇILIŞI TÜRKİYƏDƏ GEDƏN ÇOX UĞURLU PROSESİN TƏZAHÜRÜDÜR"

"Bütün türk qardaşlarımızı səmimi qəlbdən salamlayıram. Azərbaycandan hərarətli salamları ifadə edirəm. İlk növbədə, hörmətli qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu mərasimə dəvət etdiyi üçün təşəkkürümü bildirirəm. Bu gözəl hava limanının açılışı münasibəti ilə sizi ürəkdən təbrik edirəm". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə Rize-Artvin Hava Limanının açılışındakı çıxışında deyib. Dövlət başçısı qeyd edib ki, bu hava limanının açılışı Türkiyədə gedən çox uğurlu prosesin təzahürüdür: "Qardaş Türkiyə gündən-günə sürətlə inkişaf edir. Bütün bunların təməlində aparılan siyasətin, əziz qardaşımın böyük əməyi var. Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda ölkə daxilində də böyük layihələr həyata keçirməyə qadirdir. Bunlar arasında xüsusi ilə insanlara xidmət göstərən layihələri qeyd etmək istərdim. Hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar - bütün bunlar Türkiyənin inkişafını, gücünü göstərən amillərdir".

### "RİZƏ TÜRK DÜNYASINA BÖYÜK LİDER VƏ MƏNİM QARDAŞIM RƏCƏB TAYYİB ƏRDOĞANI BƏXŞ EDİB"

Dövlət başçısı Rizənin, Artvinin, Qara dəniz bölgəsinin gözəl, füsunkar təbiətinin böyük sərvəti olduğunu bildirib: "Mən ilk dəfədir ki, Rizədəyəm. Bu diyar haqqında çox eşitmişəm, çox duymuşam. Təyyarə ilə gələrkən, pəncərədən bu gözəl mənzərəni seyr edərkən və artıq bu mənzərəni burada seyr edərkən əziz qardaşıma dedim ki, bu yer cənnətə bənzəyir". Dövlət başçısı qeyd edib ki, Rizənin, Artvinin, Qara dəniz bölgəsinin gözəl, füsunkar təbiəti böyük sərvətdir: "Amma ən böyük sərvət bu bölgənin insanlarıdır, mərd, vətənpərvər, döyüşkən, Türkiyə Cümhuriyyətinin keşiyində duran insanlardır. Eşq olsun bu insanlara! Mən bu gün qardaşımın məmləkətindəyəm və demək olar ki, öz məmləkətimdəyəm. Rizə Türk dünyasına böyük lider və mənim qardaşım Rəcəb Tayyib Ərdoğanı bəxş edib. Buna görə Sizə minnətdarıq. Bütün Türk Dünyası sizinlə fəxr edir. Bir daha sizi bu gözəl hadisə, hava limanının açılışı münasibətilə təbrik edirəm. Yaşasın Rizə! Yaşasın Türkiyə! Yaşasın Türkiyə-Azərbaycan Birliyi".

### "İKİNCİ QARABAĞ SAVAŞI BİZİM MÜŞTƏRƏK, ŞANLI TARİXİMİZDİR"

"Bu gün sizinlə bərabər olmaq mənim üçün böyük xoşbəxtlikdir. Bu gün bu gözəl mərasimdə Azərbaycan Prezidentinin iştirakı Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Rize-Artvin Hava Limanının açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

Ardı Səh. 4

# TÜRKİYƏ-AZƏRBAYCAN

## Liderlərinin və xalqlarının sarsılmaz birliyinin növbəti nümayişi!



Əvvəli Səh. 3

Prezident vurğulayıb ki, biz hər zaman bir yerdəyik - xoş günlərdə də, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərib: "İlk saatlardan savaşın son gününə qədər mənim qardaşım bizim yanımızda idi, qardaş Türkiyə xalqı bizim yanımızda idi. İkinci Qarabağ savaşı bizim müştərək, şanlı tariximizdir, 30 illik işğala son qoyduq. Savaşın ilk günündə hörmətli Prezident, qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalqız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxu üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər, Şuşa şəhərində Azərbaycanın bayrağı ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi. Azərbaycan xalqı bu qardaşlığı heç vaxt unutmayacaq". Bəli, bu faktlar bir daha onu göstərir ki, bu gün tarixi köklərə bağlanan qardaşlıq birliyi bundan sonra da daha da möhkəmlənəcək. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Qırx dörd günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq". Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Göründüyü kimi, bütün bunlar bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir. Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Tezliklə, qardaş Türkiyə bu sınaqdan da üzüağ çıxacaq, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə də iki qardaş dövlət həmişə bir-birinin yanındadır. Dövlət başçımızın dediyi kimi: "Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq".



### "BİZ TÜRKİYƏ İLƏ HƏM DOSTUQ, HƏM QARDAŞIQ, HƏM DƏ ARTIQ RƏSMƏN MÜTTƏFİQİK"

Prezident İlham Əliyev çıxış zamanı bildirib ki, bu gün də biz bir yerdəyik, Qarabağın inşasında bərabər, çiyin-çiyinə çalışırıq və bir çox Türkiyə şirkətləri, o cümlədən bu gözəl Rize-Artvin Hava Limanını inşa edən şirkət də Qarabağda inşaat işləri ilə məşğuldur: "Minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın inşası ilə bağlı öz işini görür, öz sözünü deyir". Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir: "Ölkələrimiz çox böyük sınaqlardan keçib. Keçən il bizim tarixli və qədim şəhərimiz Şuşa şəhərində Türkiyə və Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırdı. Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik". Bəli, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Və istər Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfərləri, istərsə də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri, səfərlər çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

### GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR

Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Çünki bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı olan, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, ən çətin anlarında belə bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir. Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir və bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Bütün bunların fonunda Prezident İlham Əliyevin bu gün Türkiyə üçün önəmli bir gündə qardaş ölkədə olması olduqca əlamətdar bir hadisədir. Sözügedən bu böyük tədbir bir daha onu göstərir ki, Azərbaycan və Türkiyə dövlətləri, liderləri və xalqlarımız arasındakı münasibətlər müqayisə olunmaz bir birliyə söykənir. Bu birlik isə hər iki dövlətin bu günü ilə yanaşı, sözsüz ki, işıqlı gələcəyini də təmin edir. Çünki bu dövlət başçımızın dediyi kimi: "Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik".






**RƏFİQƏ KAMALQIZI**

# Prezident Administrasiyasında görüş keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə reallaşan siyasi dialoq prosesi çərçivəsində siyasi partiya rəhbərləri ilə təşkil olunan görüş və diskussiyalar davam etdirilir. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin növbəti görüşü mayın 16-da Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev ilə keçirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ədalət Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatlar, İkinci Qarabağ müharibəsi, yeni geosiyasi reallıqlar, Azərbaycanın dünya siyasi arenasında artan rolu, işğal nəticəsində Azərbaycana dəymiş ziyanın kompensasiyası, Qarabağa Böyük Qayıdış və digər aktual məsələlər barədə fikirlərini səsləndirib.

Şöbə müdiri siyasi dialoq, siyasi partiyaların cəmiyyətdə rolu, müxalifətlə konstruktiv əməkdaşlıq və yaranmış sağlam mühit haqqında geniş məlumat verib. Müvafiq istiqamətdə görülmüş işlərin əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi bildirib ki, Prezident İlham Əliyevin siyasi iradəsi ilə ölkəmizdə partiyaların inkişafı üçün yaradılan şərait bilavasitə ölkə rəhbərliyinin dövlət quruculuğu məsələlərində demokratik dəyərlərə verdiyi qiymətdən xəbər verir. Bütün demokratik təşəbbüslərə rəğmən, sabitliyin pozulmasına xidmət edən təxribatlar təəssüf hissi doğurur, milli maraqların toxunulmazlığına təhdid yaradan radikal meyillər cəmiyyət tərəfindən qəbul edilmir və sərt tənqid olunur. Azərbaycanda uzun illər ərzində yaşanan siyasi sabitlik dayanıqlı inkişafın əsasıdır və bu sabitlik milli maraqlarımızın tərkib hissəsidir. Bununla yanaşı, görüş əsnasında siyasi partiyaların gündəlik fəaliyyəti ilə bağlı müxtəlif səpkili məsələlər, partiyaların ictimai nüfuzu, qərargahla təmin olunması və maliyyə hesabatlarının təqdim edilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Fərəc Quliyev 44 günlük Vətən müharibəsi zamanı yaranan birliyi yüksək qiymətləndirərək, cəmiyyətin, o cümlədən siyasi partiyaların nümayiş etdirdiyi həmrəylikdən danışaraq ümummilli və dövlətçilik məsələlərində özünün və rəhbərlik etdiyi siyasi partiyanın dövlətin yanında olduğunu xüsusi vurğulayıb.

Görüş zamanı dövlətimizin Ermənistanla sülh müqaviləsinin bağlanması istiqamətindəki mövqeyinin də partiya tərəfindən dəstəkləndiyi bildirilib. Fərəc Quliyev xarici siyasətdə atılan addımları təqdir edib, bu istiqamətdə aparılan siyasətin tezliklə bütövlükdə Qafqaz regionunda sabitliyi və dayanıqlı təhlükəsizliyi təmin edəcəyini diqqətə çatdırıb.

Həmçinin görüşdə ölkəmizdə pandemiya ilə mübarizədə görülmüş tədbirlər yüksək qiymətləndirilib. Bu sahədə qazanılan təcrübənin digər ölkələr üçün də nümunə olduğu vurğulanıb. Administrasiya rəsmisi Ədalət Vəliyev görüşün sonunda konstruktiv əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayaraq, Fərəc Quliyevə və onun sədrlik etdiyi siyasi partiyaya dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Fahrettin Altun: “Şanlı Zəfərlə nəticələnən Qarabağ müharibəsi dövründə göstərdiyimiz həmrəylik sosial mediada da özünü büruzə verdi”

*Şanlı Zəfərlə nəticələnən Qarabağ müharibəsi dövründə göstərdiyimiz həmrəylik sosial mediada da özünü büruzə verdi. Biz informasiya cəbhəsində Azərbaycanla birgə mübarizə apardıq. Nəticədə şanlı Zəfərin qazanılmasına töhfəmizi verdik.* AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun İstanbulda keçirilən Türk Dövlətlər Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək-vəzifəli rəsmilərinin 4-cü toplantısında çıxışı zamanı ifadə edib.



*Bu tədbirin mövcud əməkdaşlıqları daha da inkişaf etdirəcəyini deyən F.Altun bildirib ki, TDT yarandığı gündən ötən 13 il ərzində təşkilat təkmilləşərək beynəlxalq quruma çevrilib. Liderlər bu təşkilatın inkişafı və birliyi istiqamətində mühüm addımlar atıblar. Ölkələrimizin birliyinin daha da möhkəmləndirilməsinə töhfəmizi verməliyik. Media sahəsinin inkişafı isə bu sahəni təmsil edənlərin əlindədir.*

*”Bu il dördüncüsü keçirilən toplantı ilə müştərək yol xəritəmiz və yeni əməkdaşlıq imkanları dəyərləndirilir. Xüsusilə sosial mediada dezinformasiya ilə mübarizə toplantımızın əsas mövzularındandır. Təəssüflə qeyd etmək istərdim ki, biz bu dezinformasiyaya məruz qalan ölkələrdən biriyik. Bu çağırışla birgə mübarizə və onun qarşısının alınması hər birimiz üçün çox vacibdir. Burada, eyni zamanda, televiziya və film sahəsi üzrə birgə layihələrimizin təkmilləşdirilməsi məsələləri də müzakirə olunacaq. Türkiyənin kommunikasiya modelinin türk dünyasına inteqrasiyası barədə addımların atılması nəzərdə tutulur”- deyə o qeyd edib.*



## Hikmət Hacıyev: “Ölkələrimizə qarşı aparılan dezinformasiya bu gün də davam edir”

2021-ci il Türk Dövlətləri Təşkilatının tarixində çox mühüm və əhəmiyyətli il olub. Çünki İstanbul Sammitində təşkilatımız məhz Türk Dövlətləri Təşkilatı adı altında təsis edildi. Həmin Sammitdə ”Türk dünyasına baxış 2040” sənədi qəbul edildi ki, burada digər sahələrdə olduğu kimi, media və informasiya sahəsində də ölkələrimiz arasında əməkdaşlıqla qarşıya çox ciddi vəzifələr və tapşırıqlar qoyuldu.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İstanbulda keçirilən Türk Dövlətlər Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 4-cü toplantısında çıxışı zamanı bildirib.

Media sahəsi üzrə birgə işlərin daha sistemli və koordinasiyalı şəkildə aparılması üçün təşkilat daxilində yaradılan qrupun üzv ölkələr arasında birgə fəaliyyətin təkmilləşdirilməsinə dəstək verəcəyini vurğulayan H.Hacıyev deyib ki, xüsusilə 2019-cu ildə VII Bakı Sammitində liderlərimiz tərəfindən qəbul edilən qərarlarla media, televiziya kimi sahələr üzrə əməkdaşlıq qarşımıza məqsəd kimi qoyulub. Türk dünyası olaraq bugünkü toplantıda çox mühüm məsələləri müzakirə etdik.

Türk Dövlətləri Təşkilatına uğurlu sədrlik etdiyi üçün Türkiyə dövlətinə minnətdarlığını bildirən Prezidentin köməkçisi keçən il keçirilən media forumunu xatırladaraq, o görüşün ölkələrimiz arasında media sahəsi üzrə təkcə rəhbər şəxslərin görüşü deyil, eyni zamanda, qurumlar arasında əməkdaşlıq baxımından da səmərəli olduğunu bildirib.

Liderlərimiz tərəfindən qarşımıza qoyulan məqsədlərin, sadəcə, əməkdaşlığa deyil, xalqlarımızın mənəvi yaxınlaşmasına da töhfə verdiyini deyən Hikmət Hacıyev ölkələrimizə qarşı aparılan dezinformasiya və saxta xəbər təbliğatlarının bu gün də davam etdiyini deyib.

”Azərbaycanın müstəqilliyinin ilk günlərindən biz bu kimi hücumlara məruz qalmışıq. Xüsusilə 44 günlük Qarabağ müharibəsində biz hibrid, psixoloji müharibənin bütün elementləri ilə üz-üzə qaldıq. Bütün digər sahələrdə olduğu kimi, Azərbaycan və türk mediasının birgə fəaliyyəti, birgə səylər sayəsində haqq və ədaləti dünyaya çatdırmağa nail olduq”, - deyə Prezidentin köməkçisi qeyd edib.

## Azərbaycan Prezidentinin hədiyyəsi Kraliça II Yelizavetaya təqdim olunub



12-15 may 2022-ci il tarixlərdə Böyük Britaniyada keçirilən ənənəvi ”Vindzor Kral Atçılıq Şousu” tədbirləri çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kraliçası II Yelizaveta Azərbaycan Res-publikasının Atçılıq Federasiyasının prezidenti Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyətini Vindzor sarayında qəbul edib.

SİA-nın məlumatına görə, Vindzor Kral Atçılıq Tədbirləri” çərçivəsində Azərbaycan təmsilçilərinin çıxışlarını hər zaman böyük maraqla izləyən Ülyahəzrət Kraliçaya Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin hədiyyəsi - ”Şöhrət” adlı Qarabağ atı təqdim olunub. Kraliçaya hədiyyə olunan at Vindzor qəsrinə gətirilərək haqqında bütün məlumatlar əks olunan sertifikatla birgə yeni sahibinə təhvil verilib.

Daha sonra Azərbaycanın tanınmış heykəltaraşı Faiq Hacıyevin yaratdığı ”Alxan” adlı Qarabağ, ”Qalxan” adlı Dilbaz atlarının heykəlləri Ülyahəzrət Kraliçaya hədiyyə olunub. Ülyahəzrət II Yelizaveta hədiyyəyə görə təşəkkürlərini ifadə edib, ”Vindsor Kral At Şousu” tədbirlərində ənənəvi iştiraka görə minnətdarlığını bildirib.

# Şuşanı görən hər kəs heyrətlənir



Uşaqlığımdan bəri hər zaman kitablardan oxuyub, böyüklərdən eşitdiyim şəhəri əyani şəkildə görmək iki il əvvələ qədər yuxu kimi görünürdü. Lakin bu şəhərdə artıq bir çox beynəlxalq tədbirlər keçirilir. İstər mədəni, istərsə də siyasi tədbirlərin burada yəni işğaldan yeni azad olunmuş Şuşada keçirilməsinin isə böyük əhəmiyyəti var. Belə ki, ilk növbədə bu tədbirlər sayəsində Şuşa bütün dünyada tanıdılır. Eyni zamanda Şuşanın bu qədər qısa müddət ərzində infrastrukturunun yenidən qurulması, mədəniyyət abidələrinin bərpası istiqamətində görülən işlər bu şəhəri görən hər kəsi heyrətləndirir. Sanki iki əvvəl heç bu şəhərdə erməni vandalları yaşamayıb, sanki Şuşa heç onların vəhşiliklərinə məruz qalmayıb. Bu baxımdan Şuşadakı inkişaf nəinki Azərbaycan xalqının, hazırda bölgənin və bir çox dünya dövlətlərinin diqqətini özünə çəkir. Bu gün Şuşa həqiqətən ona verilən mədəniyyət paytaxtı statusunu layiqincə daşıyır.

Hər kəsə məlumdur ki, 12-14 may tarixlərində yenidən bütün dünyanın diqqətini Qarabağa, xü-



susilə də Şuşaya çəkən V Beynəlxalq "Xarıbülbül" Festivalı keçirildi. Bu festival nəticəsində yenidən dünya Şuşanın seyrinə çıxa bildi.

Bu festival ilk dəfə 1989-cu ildə keçirilmiş və Seyid Şuşinskinin 100 illik yubileyinə həsr edilmişdir. II Qarabağ müharibəsində əldə edilmiş zəfər nəticəsində 30 illik aradan sonra 2021-ci ildə yenidən Qarabağın incisi olan Şuşada "Xarıbülbül" festivalı keçirilməyə başlanıldı.

2022-ci il 12-14 may tarixlərində keçirilən V Beynəlxalq "Xarıbülbül" Festivalı isə yenə də möhtəşəmliyi ilə göz oxşayırdı. Təbii ki, biz də "Səs" İnformasiya Agentliyi olaraq (SİA) Şuşada, Cıdır düzündə baş tutan bu möhtəşəm festivalı izləməyə yollandıq.

Şuşaya gedəcəyimizi eşitdik-



də keçirdiyimiz hisləri sözlə ifadə etmək çox çətindir. Bir həftə ərzində yola çıxacağımız günü "iplə çəkirdik". Nəhayət zaman yetişdi və biz Şuşaya doğru uzanan yola çıxdıq. İlk saatlarda yol bizim üçün olduqca sıxıcı və maraqsız keçsə belə bütün bu sıxıntılar Qarabağa ayaq basdıqdan sonra bitdi. Həqiqətən də yol boyu hər qarış artıq bir məna kəsb etməyə başladı. Maşınımızda Şuşaya bir neçə dəfə yollanan jurnalist yoldaşımızın olması isə bizim üçün olduqca xoş idi. Çünki Şuşaya çatana qədər heç bir sualımız cavabsız qalmırdı. Yolda diqqətimizi çəkən hər bir şey bizdə sual doğururdu və bu suallara cavab tapa bilmək isə olduqca xoş idi. Yol boyu erməni vandalizminə məruz qalaraq dağıdılmış evləri görmək içimizdəki nifrət hissəni nə qədər oyadırdısa, bu qədər qısa bir müddət ərzində bərpa olunmuş yolları, çəkilmiş elektrik xətlərini görmək isə bizi bir o qədər də qürurlandırırdı.

Nəhayət Şuşaya çatdıq və biz çatan zaman artıq sonuncu günün konsertlərinə start verildi. Səhnədəkiləri izləyərkən ilk diqqətimi çəkən səhnənin arxasını bağlamadıqları üçün Şuşanın füsunkar təbiətini də izləmək mümkün idi. Yəni səhnədəki çıxışlar qədər arxa fondakı təbiət də bizim ruhumuzu oxşayırdı. Şuşada olduğumuz bir gün içərisində ciyərlərimizi o təmiz hava ilə doldurub, ruhumuzun dincəldiyini hiss etdik. Çalışdığımız qədər Şuşanı yaddaşımıza həkk etdik.

Təbii ki, bura gəlməkdəki əsas məqsədimiz olan "Xarıbülbül" Festivalını da unutmadıq. Festival həqiqətən də bir çox mədəniyyətləri özündə əks etdirirdi. Folklor qruplarının, rəqs kollektivlərinin, musiqiçilərin biri-birindən maraqlı çıxışları insana böyük bir zövq verirdi. Xüsusilə də burada sanki hər kəs biri-birini çoxdandı tanıyırdı, yeni insanlar arasında gözəl və mehriban bir münasibət var idi. İnsanlar təbiət qoynunda əyləşərək, mədəniyyət nümunələrindən zövq alırdılar.

Şuşa öz mədəniyyət ruhunu



əks etdirməklə yanaşı bu festivalda həm də müxtəlif xalqların musiqisinə, mədəniyyətinə yer verib. Festivalda 10 xarici ölkənin müxtəlif folklor qrupları rəqs kollektivləri və mədəniyyət xadimləri öz səhnə əsərləri ilə izləyənlərin mədəni istirahətlərini təmin edərək, onlara zövq dolu anlar yaşadıblar.

V "Xarıbülbül" Beynəlxalq Festivalının sonuncu günü ilə bağlı Mədəniyyət Nazirliyinin Media və Kommunikasiya şöbəsinin əməkdaşı Leyla Sarabi festivalın Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa şəhəri Dövlət Qoruğunun təşkilatçılığı ilə keçirildiyini bildirdi:

"Bu gün 14 may tarixində festi-



valın sonuncu gününə yığışmışıq. Gördüyünüz kimi möhtəşəm tədbir keçirilir. Burada həm Azərbaycan folklorunun, həm də xarici caz ifaçılarının müxtəlif rəqs kollektivləri və folklor qruplarının çıxışları baş tutacaq. Misirdən gələn caz ifaçısının sədaları altında hər kəsin xoş zaman keçirəcəyindən əminik. Ümumilikdə bu üç gündə möhtəşəm tədbirlər keçirildi. Şuşa sanki canlandı, öz mədəniyyət, musiqi ruhuna qayıtdı. Ümid edirik ki, Şuşada bu cür tədbirlərimiz davamlı şəkildə keçiriləcək".

Diqqətimi çəkən məqamlardan biri də burada könüllərin, yəni gənclərin də iştirak etməsi oldu. Belə ki, onlar işləməklərinə baxmayaraq hər kəsə xoş münasibət göstərirdilər. **"Bir Tələbə Könüllülərinin Əməkdaşlığı" İctimai Birliyinin könüllüsü Murad Zərgərov:**

"Biz V Beynəlxalq "Xarıbülbül" festivalında qonaqların qarşılan-



ması, yerləşdirilməsi və yönləndirilməsi işinə baxırıq. Eyni zamanda xarici qonaqların səhnə arxasındakı hazırlıq proseslərinə də yardımçı oluruq.

Şuşa isə möhtəşəmdir. İlk dəfədir ki, Şuşaya gəlirəm və bura məni heyran etdi. Bir vaxtlar şəkillərdə gördüyüm yerdə olmaq isə məni çox xoşbəxt edir".

"5 il davamlı olaraq Şuşaya gəlsək, biz artıq buranı tanımayacağıq". **Bu sözləri isə Balakən rayonu Cahan Folklor Xalq Kollektivinin rəhbəri Mehriban Çukayeva** bildirib. O diqqətə çatdırıb ki,



keçən il də festivalda iştirakla əlaqədar Şuşaya gəlib: "Lakin bu il ilə keçən il arasında Şuşadakı bərpa işləri olduqca diqqətimi çəkdi. Yolların təmiri, elektrik xətlərinin çəkilməsi Şuşanın tez bir zamanda nə qədər inkişaf etdiyini göstərir.

Biz festivala 13 nəfərlik heyətlə qatılmışıq. Festival üçün aprelin 20-dən məşqlərə başlamışdıq. Məşqlər öz rayonumuzda baş tutsa da iki dəfə baxış məşqi üçün Bakıya yollanmışıq. Bu gün isə burada Şuşada, Cıdır düzündə yenidən çıxış edəcəyimiz üçün çox xoşbəxtik".

Festivalın açılış mərasimi nə qədər möhtəşəm idisə, bağlanış mərasimi də bir o qədər füsunkar



idi. Xüsusilə sonda istər iştirakçıların, istərsə də izləyənlər yeni hər kəsin birlikdə birliyin rəmzi olan yallı havası ilə Cıdır düzündə rəqs etməsi isə insanın içini fəxr hissi ilə doldururdu.

Yaşasın Azərbaycan!!!

***Səbinə Hüseynli***

REPORTAJ

# Xeyirxahlıq və həmrəylik ətrafında minlərlə insanı birləşdirən layihə!

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu-2022" "Küləyə qalib gəl" şüarı ilə reallaşdı



**Əhalinin sosial həyatının dəyişdirilməsi, onun rifahının təmin edilməsi, yoxsulluğun aradan qaldırılması ölkəmizdə dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərlə yanaşı, onların zəruri tələbatlarının ödənilməsi üçün də dövlət büdcəsindən ayrılan vəsaitlərin miqdarı artırılıb.**

Dövlətin maraqları nəzərə alınaraq görülən bu işlərdə əsas məqsəd insanların gələcəyini təmin etməkdir. Bütün bunlarla yanaşı, əhalinin sağlamlığının təmini də görülən işlərin davamı olaraq həyata keçirilir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər ilə fəaliyyət göstərən, eləcə də, Heydər Əliyev ideyalarını yaşadan və Onun adını daşıyan Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında reallaşan davamlı tədbirlər bəhrəsini verir. Heydər Əliyev Fondu xüsusilə humanitar missiyada fəaliyyət proqramının həyata keçirməklə bütün yaş həddində olan vətəndaşların qayğı və problemlərin təminatçısına çevrilib.

Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva Azərbaycanda əhalisinin sağlamlığının qoruyucusuna çevrilib. Fondun əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması, vətəndaşlarımızın ölkədə və xaricdə müalicəsinə kömək məqsədi ilə həyata keçirdiyi irimiqyaslı proqram layihələri nəticəsini göstərməkdədir.

### İDMANIN İNKİŞAFINA DƏSTƏK VƏ SAĞLAM HƏYAT TƏRZİNİN TƏBLİĞİ

Heydər Əliyev Fondunun genişmiqyaslı layihələri sırasında Bakı marafonu da xüsus yer tutur. Vurğulayaq ki, 2016-cı ildən təşkil olunan Bakı marafonu idmanın inkişafına dəstək, sağlam həyat tərzinin təbliği məqsədi daşıyır. "Küləyə qalib gəl" şüarı altında keçirilən "Bakı Marafonu-2022" də Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayan, çalışan əcnəbilər, eləcə də bir sıra ölkələrdən nümayəndələr də iştirak ediblər. ABŞ, Almaniya, BƏƏ, Böyük Britaniya, Çin, Fransa, Kamerun, Nigeriya, Qazaxıstan, Rusiya, Türkiyə, Ukrayna, Uqanda və digər ölkələrdən olanlar iştirakçılar olublar. "Bakı Marafonu-2022"də daun sindromlu və fiziki məhdudiyyətli şəxslər də iştirak ediblər. Yarış zamanı ilk start daun sindromlu şəxslər, daha sonra isə fiziki məhdudiyyətli şəxslər üçün verilib. Üçüncü start isə ümumi iştirakçılar üçün olub. Marafonun qalibləri iki kateqoriya üzrə seçilib. Kişilər arasında rusiyalı Rinas Axmadeyev birinci olub. Türkiyə təmsilçisi Ömər Alkan yarışı ikinci, çexiyalı Vladimir Marçik üçüncü pillədə başa vurublar.

Qadınların mübarizəsində Ukrayna atleti Valentina Veretskaya fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Türkiyəli Dilek Öztürk və Valentina Poltavskaya (Ukrayna) ilk üçlükdə yer alıblar. Marafonun qalibinə 3000, ikinci yeri tutan iştirakçıya 2000, üçüncü yerin sahibinə isə 1000 manat məbləğində pul mükafatlar verilib. Mükafatçılar, həmçinin medal və sertifikatlarla təltif ediliblər. Finiş xəttini keçən ilk 1000 iştirakçı isə "Bakı Marafonu-2022"nin xüsusi medalları ilə təltif olunub.

### BELƏ MARAFONLAR DÜNYANIN İNKİŞAF ETMİŞ ŞƏHƏRLƏRİNDƏ KEÇİRİLİB

Qeyd edək ki, bu cür marafonlar indiyədək Barselona, Berlin, Boston, Çikaqo, İstanbul, London, Nyu-York, Paris və digər şəhərlərdə təşkil olunub. Qeyd edək ki, layihə Azərbaycanda region sakinləri tərəfindən böyük maraqla qarşılandığından 2017-ci ildə Gəncə şəhərində də yarımarafon təşkil olunmuşdu. Bakı marafonunun bu il fərqli marşrutda təşkil edilməsi şəhərimizin təqdimində də əhəmiyyətlidir. Belə ki, yarışın start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında olub. İyirmi bir kilometrlik məsafəni əhatə edən marafonda iştirakçılar Dövlət Bayrağı Meydanı - Dənizkənarı Bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ Şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, Cavanşir körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti (Hökumət Evi, Muzey Mərkəzi, Kukla Teatrı, Qız qalası, Azneft dairəsi), Bakı Funikulyoru, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı marşrutu üzrə yürüş ediblər. Şəhərimizin ən gözəl, görməli və memarlıq baxımından əhəmiyyətli yerləri diqqətdən kənarda qalmır. Bu da turizmin inkişafında rol oynayır. Bu marafonun digər diqqəti cəlb edən tərəflərindən biri də birlik, xeyirxahlıq, həmrəylik məqsədləri ətrafında insanları birləşdirmək, gəncləri fiziki cəhətdən daha güclü olmağa həvəsləndirməkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "AZƏRİŞIQ" azad edilmiş torpaqlarımızı nura boyayır

**Prezident İlham Əliyev: Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq.**

30 il işğal altında qalan Qarabağda düşmən daşı daş üstündə qoymayıb. Bütün tarixi abidələr, muzeylər, məscidlər, pirlər, digər sosial obyektlər kimi, rayonlarımızın kommunikasiya sistemi də sıradan çıxarılıb. Düşmənin bu xisləti vəhşiliyin son həddinin göstəricisi olmaqla yanaşı, həm də dünyadakı havadarlarına onun təsdiqi idi ki, bu torpaqlar onlara məxsus deyil. Çünki heç kim öz torpağında bu qədər barbarlığa yol verməz, əksinə olanları qoruyub saxlamağa çalışar. Dövlətimizin başçısının dediyi kimi: Bizim evlər - azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Sıradan çıxan kommunikasıyalardan biri də elektrik enerjisidir. Hansı ki, indi azad olunmuş torpaqlarda elektrik enerjisi çox vaciv və lazımlıdır. Çünki həyata keçirilən bütün quruculuq işləri elektrik enerjisi olmadan mümkün deyil. Onsuz da işğaldan əvvəl sovet hakimiyyətinin əsarətində olan Azərbaycanın bütün əraziləri kimi, bu rayonlarda da elektrik təsərrüfatı bərbad və-





ziyyətdə idi. Necə gəldi çəkilən, harada gəldi qoyulan transformatorlar müasir texnologiyadan uzaqda qalan bu yurd yerlərimizin əksəriyyətinin mürəkkəb coğrafi quruluşunda çətinliklər yaradırdı.

44 günlük müharibə dövründə daha da sıradan çıxan elekrtik xətləri tamamilə yararsız vəziyyətə düşmüşdü. Elektrik enerjisi isə 44 günün hər saatında işğaldan azad edilən torpaqlarımız üçün olduğca va-cib idi. Elə bu səbəbdən də "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti ölkə başçısının tapşırığı ilə bu ərazilərdə təcili fəaliyyətə başladı.

### Hərbçilərin ardınca "Azərişıq"

İkinci Vətən Müharibəsini əhatə edən 44 gündə bütün xalq gecə-gündüz ayaq üstündə idi. Onlar Ali Baş Komandanın əmrini gözləyirdilər. Hər bir vətəndaş əsgərə çevrilmiş, ona verilənəcək tapşırığı canla-başla yerinə yetirməyə hazır idi. Çünki biz 30 ilin yükünü çiyinlərimizdən atırdıq. Bu yük namus, şərəf yükü idi. 30 ilin əvvəlində torpaqlarımızı satıb soydaşlarımızı öz ata-baba yurdundan zorla qovduranların bu xalqın şərəfinə gətirdiyi ləkələri təmizləməyə qalxmışdıq. Birinci Vətən Müharibəsində minlərlə şəhidimizin, qazimizin, evləri dağıdılan, yurdları boş qalan insanların qisasını almaq üçün ayağa durmuşduq.

Yenə də minlərlə şəhidimiz, qazimiz olsa da, şərəfimizi, ləyaqətimizi təmizlədik. 44 günün hər gününə dünyanın heyran qaldığı səhifələr yazdıq. Bu səhifələrdə hərbçilərimizlə yanaşı, digər qurumlar da var ki, dövlət başçısının tapşırığı ilə dərhal azad olunmuş torpaqlarda öz vəzifələrini həyata keçirməyəbaşladılar.



Onlardan biri də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətidir. Maraqlı faktlar var ki, bu qurum 44 gündə ordumuz hansı bölgəni azad etmişsə, dərhal oraya yollanmış, ilkin işıqlandırma məsələlərini həll etməyə çalışmışdır. Qarlı-yağışlı havalara, dağlıq ərazilərin çətin relyefinə baxmayaraq görüləntəxirəsalınmaz işlərin nəticəsidir ki, indi bütün azad edilmiş rayonların mərkəzində işıqlandırma var. Ucqar ərazilərin elektrik enerjisi ilə təminatı işləri isəhazırda sürətlə davam etdirilir. Davam etdirilir ki, soydaşlarımız azad olunmuş torpaqlara vaxtındaqayıda bilsinlər. Axı quruculuq işləri elektrik enerjisi olmadan həyata keçirilə bilməz. Bunun üçün də "Azərişıq" əməkdaşları əlverişsiz hava şəraitində də fəaliyyət göstərir, 30 ilin yurd həsrətlilərinin evlərinə qayıtması üçün əllərindən gələn köməkliyi göstərirlər.

Azad olunan torpaqlarda başlayan quruculuq işlərində iştirak edənlərin hər biri də bir əsgərdir. Çünki əsgər döyüşərək vəzifəsini yerinə yetirirsə, digər insanlar isə bu ərazilərə yeni həyat verirlər. Heç bir həyat işartısı olmayan ərazilərə.

## Şuşada 48 transformator stansiyasından 9 yarımstansiyaya

Bəli, yuxarıda da vurğuladığım kimi, sovet dövründə ölkəmizin hər bir bölgəsi kimi, Qarabağda da bütün sahələr inkişafdan qalmışdı. Hər il Azərbaycanın bol sərvətlərini yetərincə mənimsəyən imperiya respublikamızın inkişafını nədənsə gündəmə gətirmək fikrində deyildi. Bu səbəbdən də bütün bölgələrimizi köhnəlik, baxımsızlıq mənzərəsi ağuşuna almışdı.

Şuşada da digər sahələr kimi, haqqında danışdığımız elektrik təsərrüfatı sahəsi də xoşagəlməz səviyyədə idi. Bu yaxınlarda "Azərişıq" rəsmisi televiziya kanallarından birinə müsahibəsində maraqlı faktlar açıqladı. Deməli, işğaldan əvvəl Şuşada 48 transformator satansiyası mövcud imiş. Təsəvvür etmək o qədər də çətin deyil ki, bu gözəllər gözəli şəhər həmin çoxsaylı transformatorların fonunda necə görünürmüş. O zaman da qonaqlı-qaralı olan, turistlərin üz tutduğu, tədbirlərin, festivalların keçirildiyi Şuşa elə bu fakta əsasən demək olar ki, baxımsız bir yer imiş.

Lakin işğaldan sonra Şuşanın bərpasının baş planaına əsasən şəhərin elektrik təminatı da texnoloji yeniliklərin, burada rəqəmsal stansiyanın ilk dəfə tətbiqi ilə tam müasir şəkildə həyata keçirilir. Belə ki, həmin o 48 transformator stansiyasının işi sadəcə 9 yarımstansiyanın öhdəsinə verilib. Onlardan 6-nın tıkintısı gedir. 3-nün tikintisinə isə tamamlanma işləri görülür. Əvvəllər bir-birinə dolaşan xətlər ixtisara salınıb, bütün xətlər yeraltı işlənib. Bu, həm enerji itkisinin qarşısını alır, həm də şəhərin estetik görünüşünü təmin edir.

Mayın 10-da Prezident İlham Əliyevin "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarətmə Mərkəzini işə salması da görülən işlərin uğurlu ardıcıllığının göstəricisidir.

## Güləbird azad edilmiş torpaqlarda istifadəyə verilən ilk elektrik stansiyasıdır

Prezident İlham Əliyev azad olunmuş ərazilərə növbəti səfəri zamanı Laçın rayonunda 8 meqavat gücə malik Güləbird Su Elektrik Stansiyasının açılışı zamanı bildirmişdir ki, Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib.



Dövlətimizin başçısı demişdir: "Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik".

Bölgədə bərpaolunan enerji növlərinin çox böyük potensialı olduğunu bildirən Prezident İlham Əliyev deyib: "Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız Qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir".

## Qarabağda elektrik stansiyalarının sayı 30-a çatdırılacaq

Ötən ilin avqust ayında Kəlbəcər və Laçın rayonlarında səfərdə olarkən Prezident İlham Əliyev 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak edərkən demişdir: Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının



tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Dövlət başçısının çıxışlarında görülən işlər səlist xronoloji ardıcıllıqla göstərilir. Bu tarixi faktlar Qarabağın inkişafının göstəriciləri ilə yanaşı, həm də görülən işlərin öyrənilməsi ilə bağlı ən yaxşı mənbədir.

Hazırda Ağdam, Kəlbəcər, Laçın rayonlarında 4 ədəd 110 kV-luq yarımstansiyanın, Füzuli rayonunda 35 kV-luq "Veysəlli", Qubadlı rayonunda 35 kV-luq yeni yarımstansiyanın, Şuşa şəhərində elektrik enerjisinin paylanması üçün 35/0,4 kV-luq 9 yarımstansiyanın,70 km-ə yaxın 35 kV-luq kabel xətlərinin tikintisi, Zəngilan rayonunda 35 kV-luq "Alıbəyli", Cəbrayıl rayonunda 35 kV-luq "Hərəkül" və Xocavənd rayonunda 35 kV-luq Hadrut yarımstansiyalarının yenidən qurulması tədbirləri həyata keçirilməkdədir.

## İzolyasiyalı xətlər əkin sahələrinin artmasına şərait yaradır

Müasir dövrdə əkin sahələrinin genişləndirilməsi, əkinəyaylı sahələrin hər qarışının əkin dövriyyəsinə daxil edilməsi mühüm əhəmiyyətə malikdlr. Çünki dünyada qlobal problemlər yaşanır, ərzaq qıtlığı tüğyan edir, nəticədə isə məhsulların qiymətlərinin bahalaşması müşahidə olunur. Bu səbəbdən də kənd təsərrüfatını inkişaf etdirmək hər bir ölkə üçün mühümdür. Torpaq sahələri nə qədər çox əkilərsə, ehtiyac o qədər azalmış olar.

Digər tərəfdən isə əkinəyararlı olmayan sahələrdə də müəyyən işlər həyata keçirilir, onlar otlaqlar və ya hər hansı tikili üçün əlverişli hesab olunur. Bu səbəbdən də torpağın hər qarışı qiymətlidir.

"Azərişıq" ASC-nin azad edilmiş torpaqlarda həyata keçirdiyi işıqlandırma işində diqqəti çəkən maraqlı bir məqam da vardır. Bu, ondan ibarətdir ki, elektrik xətlərini




əvvəlki ənənəvi dayaqlardan fərqli olaraq bir izolyasiyalı xətt əvəz edir. Yəni əvvəlki xətlər üçün 30 metrə qədər mühafizə zonası ayrılırdı. Bu isə üst-üstə gələndə minlərlə hektar əkin sahəsinin, torpağın itirilməsi demək idi. Artıq bu cür müasir izolyasiyalı xətlər Şusada, Suqovuşanda, Zəngilanın "Ağalı" xəttində, hava limanında tətbiq olunub. Bütün bunlar isə adıçəkilən ərazilərdə min hektarlarla torpaq sahəsinin qazanılması, əkin sahələrinə sərf olunacağı deməkdir.

## 30 ilin qaranlığı yarılır

Beləliklə "Azərişıq"ın son dövrlərdəki fəaliyyətinə qısa nəzər salmaqla görmək olur ki, ölkə başçısının tapşırığı ilə artıq bu qurum azad edilmiş torpaqlarımızı nura boyayır.



O nur ki, 30 il idi ki, ona həsrət idi. Nəinki o torpaqlarda bir evdən işıq gəlmirdi, məcazi mənada desək o torpaqlara günəş belə doğmurdu. Erməni işğalında olan yurdlar öz yurddaşlarını, Vətəninin sakinlərini gözləyirdi. Onların qayıdışını, bu qayıdışla yeni novrağını gözləyirdi. O gün çatmadıqca günəş də doğmayacaqdı.

O gün isə 2020-ci ilin payızında 44 günlə gəlib çıxdı. Qarabağın sahibləri qayıtdılar. Qayıdıb 30 il əsarət məngənəsində inləyən, qaranlığa bürünən torpaqlara yeni həyat gətirdilər. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz torpaqları azad etdi. Minlərlə şəhid, qazi, dağıdılan evlər, yüzlərlə dinc sakinin həyatı bahasına payızımız bahar oldu, Qarabağ azad edildi. Elə o gündən də Qarabağa 30 il sonra günəş doğdu. "Azərişıq" ASC həmin günəşdən nur alıb əməkdaşlarının qarlı-boranlı hava şəraitində, dağlıq ərazilərin kəskin relyefində gecəli-gündüzlü böyük zəhməti hesabına Qarabağa işıq paylayır. Qarabağ nura boyanlır. Bu nur əbədi bir nurdur. Çünki o nur qanla, qəhrəmanlıqla, həmrəyliklə, birliklə, zəhmətlə, hünərlə, qeyrətlə, ən əsası isə şərəflə qazanılıb. Bu, Zəfərdir, zəfərin nurudur.

***Mətanət MƏMMƏDOVA***

ANALİTİK + AKTUAL

# Ermənistanın anklav iddiaları: bu ölkə özünü ölümə sürükləyir!

*Və bu yerdə Stivensonun əla bir kəlamı yada düşür*




**44 günlük ikinci Qarabağ müharibəsindən sonra Azərbaycan qarşısında diz çökən işğalçı Ermənistan rəhbərliyi sonrakı müddət ərzində və dəfələrlə müxtəlif danışıqlar meydançalarında üçtərəfli görüşlərə qatılmaqla sülh sazişinin imzalanması yönündə müzakirələr aparıb, eləcə də rəsmi Bakının irəli sürdüyü təklifləri - xüsusilə sonuncu 5 təklifin qəbul edildiyi bildirilib.**

Ancaq bütün bunlara rəğmən, vədləri ilə əməlləri növbəti dəfə üst-üstə düşməyən rəsmi İrəvan sülhün yaranması prosesinə əngəllər yaratmaqda davam edir, üstəlik uduzan, kapitulyasiyaya uğrayan tərəf olmasına baxmayaraq sözün əsl mənasında siyasi həyasızlıqlarını sərgiləyir, üstəlik 6 təkliflə öz qəbuledilməz maraqlarını tətbiq etməyə cəhdlər göstərir. Təbii ki, Bakı bütün bunlara səbr, təmkin nümayiş etdirsə də, bunun da bir həddinin, sonunun olduğunu gizlətmir və belə davam edəcəyi halda "Dəmir yumruq" tandeminin yenidən və bu dəfə daha sərt şəkildə işə düşməsi ehtimalı günü-gündən artmağa başlayır. Belə ki, Ermənistan hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini yalnız Rusiya sülhməramlıların müvəqqəti yerləşdikləri ərazilərdə - Qarabağda deyil, habelə işğal altında qalmaqda davam edən anklavlarımıza "sahib çıxmaq" məqsədlərini realizə etməyə çalışırlar. Misal üçün, bu günün özündə belə, Ermənistan danışıqlar zamanı hər vəchlə inandırmağa çalışır ki, sən demə Azərbaycanın Qazax rayonunun 7 kəndi, eləcə də Naxçıvan MR-nın Sədərək rayonunun Kərki kəndi bunlarda qalmalıymış və s. (?!)

**İrəvan, Qərbi Zəngəzur, Göyçə və s. tarixi ərazilərimiz artıq iddia kimi qaldırıla və Ermənistana qarşı rəsmi şəkildə tələb qoyula bilər**

Təbii ki, belə bir mühitdə suallar yaranır: məgər bu ərazilər işğala qədər Azərbaycanın tərkibində deyildimi? Özü də öz tarixi torpaqlarından vəhşicəsinə qovulan, terrorlara məruz qalan 100%-lik azərbaycanlı əhalisi ilə birgə!

Yaxud, digər yanaşa edərək daha bir sualla çıxış edək: məgər Azərbaycan danışıqlar müddətində sovetlər ittifaqına daxil edilərkən ondan qoparılaraq Ermənistana verilmiş tarixi torpaqlarımız haqqında iddialar irəli sürübmü? Hələlik, bu haqda danışmır, amma belə davam etsə sürəcək, hadisələr də məhz həmin istiqamətdə inkişaf etməyə başlayıb. İrəvan, Qərbi Zəngəzur, Göyçə və s. tarixi ərazilərimiz artıq iddia kimi qaldırıla və Ermənistana qarşı rəsmi şəkildə tələb qoyula bilər. Bu isə Azərbaycan xalqının, dövlətinin tam maraqlarına cavab verən faktordur!

Beləliklə, bu gün Ermənistan rəhbərliyinə yaxınlıqları ilə seçilən erməni siyasi ekspert dairələrinin əsas hədəflərindən biri də anklavlar məsələsidir. Onlar sual edirlər ki, nəyə görə anklav məsələləri görüşlər zamanı müzakirə edilmir? Ancaq fakt budur ki, Azərbaycan rəsmi səviyyədə daha əvvəllər bu məsələlər haqqında müzakirə açmayıb. Ancaq buna rəğmən, İrəvan anlamalıdır ki, danışıqlar masasına oturarkən, sülh müzakirələri aparılarkən sonrakı müddətə heç nə saxlanılmır! Və əgər dünən Kərki kəndi, ya da Qazaxın 7 kəndi haqqında heç nə deyilməyibsə, bu, o demək deyil ki, həmin ərazilərimiz haqqında unudulub.

**Proses Ermənistan tərəfindən qəsdən uzadılır!**

Artıq sərhədlərin demarkasiyası və delimitasiyası üçün vaxt yetişib və xatırlatmaq yerinə düşərdi ki, elə Ermənistanın baş naziri Nikol Paşinyan da çıxışlarının birində bu məsələlərin sərhədlərin müəyyən edilməsi zamanı həll ediləcəyini bəyan etmişdi. Lakin onun bəyantları ilə əməllərin üst-üstə düşməməsi göz önündədir. Proses Ermənistan tərəfindən qəsdən uzadılır!

Yeri gəlmişkən, məhv edilmiş orduları, ağır və iqtisadi böhranları yaşamalarına baxmayaraq, hakimiyyətə yaxın olan, ya da olmayan erməni siyasi ekspertləri ara-sıra ağılsız qoçun dirəyə buynuz atmasına bənzər fikirləri ilə də yadda qalırlar. Məsələn, Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə təmin, bərpa etməsi üçün başlatdığı prosesə davam edəcəyi halda onlar "düşmən güclü müqavimətlə qarşılaşacaq və geriyə atılacaq" tipli psevdopatriotçu, yekəxana bəyanatlar səsləndirirlər. Həmin bəyanatları ki, 44 günlük Vətən müharibəsindən əvvəl də səsləndirirdilər, amma sonradan əngləri əzildi, çənələri isə azad edilmiş torpaqlarımıza sürtüldü!

Bəli, bu gün Azərbaycan səbr, təmkin nümayiş etdirir, danışıqlar masasında oturmaqla mövcud problemləri sülh yolu ilə həllinə səsləyir. Ermənistanda isə yenidən militarist notlar üzərindən anlaşılmaz səs-sədalar gəlməyə başlayır.

Belə bir yerdə tanınmış Britaniya yazıçısı Stivensonun kəlamı yada düşür: "Kim ki şüşəli evdə yaşayırsa, başqalarına tərəf daş atmamalıdır".

*Rövşən RƏSULOV*

# Şuşada tikintiyə dair tələblər sərtləşdirilir




Şuşa şəhərinin ərazisində tikinti, memarlıq və şəhərsalma fəaliyyətinə dair tələblər sərtləşdirilir. SİA-nın verdiyi məlumata görə, bu, Milli Məclisin bu gün keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Hazırda qüvvədə olan qanuna əsasən, Şuşa şəhərinin ərazisində inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən arxeoloji abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğuna məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən qəbul edilir. Layihəyə əsasən, artıq bu tələb tək arxeoloji deyil, bütün abidələrə şamil ediləcək. Başqa sözlə, Şuşa şəhərinin ərazisində inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğuna məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən qəbul ediləcək.

Analoji dəyişikliklər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarında da ediləcək. Qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# MEDİA çap məhsullarının ƏDV-dən azad edilməsi ilə bağlı qərara münasibət bildirib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

"Ötən il dekabr ayının 3-də Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilmiş, Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycanda kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışının əlavə dəyər vergisindən azad olunması ilə əlaqədar müvafiq dəyişikliyə dair siyahının təsdiq olunması Nazirlər Kabinetinə həvalə olunmuşdu". Bunu SİA-ya Media Agentliyinin nümayəndəsi Elşən Ağayev deyib. O xatırladıb ki, bununla bağlı bu gün - mayın 13-də Baş nazir müvafiq qərar imzalayıb:

"Bu qərar çap mediası məhsullarının maya dəyərinin və onların istehsal xərclərinin ciddi şəkildə azalmasına, nəticədə bu sahədə fəaliyyət göstərən subyektlərin inkişafına təkan verəcək. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə əsası qoyulan çoxşaxəli və kompleks tədbirlər çərçivəsində media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi və onların inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Medianın İnkişafı Agentliyi olaraq Prezidentin müvafiq Fərmanından və "Media haqqında" Qanunda əks olunan müddəalardan irəli gələn, media subyektlərinin işinin təkmilləşdirilməsinə və onların iqtisadi müstəqilliyinin gücləndirilməsinə yönələn layihələrimizi həyata keçirməyə davam edirik".

E.Ağayev bildirib ki, Medianın İnkişafı Agentliyi tərəfindən həm çap mediası məhsullarının yayımını həyata keçirən şirkətlərin, həm də çap mediası subyektlərinin irəli sürdüyü təkliflərə hər zaman həssas yanaşılıb və operativ reaksiya verilib:

"Bu ilin mart ayında Agentlikdə çap mediası subyektlərinin, eləcə də yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilmişdi. Görüşün əsas məqsədi çap mediası məhsullarının yayım sahəsindəki mövcud vəziyyətin təhlili, yayım prosesinin səmərəliliyinin artırılması və bu sahəyə dair mövcud normativ hüquqi aktların müddəalarının izah edilməsi idi. Həmin görüşdə də hazırda ölkədə çap mediası sahəsində mövcud olan çatışmazlıqlar və onların aradan qaldırılması istiqamətində məhz yuxarıda qeyd etdiyimiz Fərmanın xüsusi rolundan bəhs edilmişdi. Beləliklə, əminliklə söyləmək olar ki, Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişiklik və bu gün imzalanan qərar media sahəsində aparılan əsaslı islahatların ardıcıllığını və vahidliyini təmin edəcək, bu sahədə fəaliyyət göstərən subyektlərin səmərəli fəaliyyətinə və iqtisadi dayanıqlılığının artmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək". Xatırladaq ki, Nazirlər Kabineti idxalı ƏDV-dən azad edilən kağız və çap məhsullarının siyahısını təsdiq edib.

# Beş və daha çox uşağı övladlığa götürən qadınlar erkən pensiyaya çıxacaq



Azərbaycanda 5 və daha çox uşağı övladlığa və qəyyumluğa götürən qadınlar erkən pensiyaya çıxacaq. SİA-nın xəbərinə görə, bununla bağlı "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsi parlamentin son iclasında III oxunuşda müzakirəyə çıxarılıb. Layihədə qeyd edilib ki, beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlarla yanaşı, 5 və daha çox uşağı övladlığa götürüb onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlara, habelə 5 və daha çox uşağı səkkiz yaşınadək tərbiyə etmiş qəyyum qadınlara da güzəştli şərtlərlə erkən pensiya hüququ veriləcək.

Eyni zamanda 5 və daha çox uşağı doğub, onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlara uşaq sayından asılı olmayaraq 5 il güzəştli şərtlərlə erkən pensiya hüququnun verilməsi təklif edilir. Başqa sözlə, hazırda qüvvədə olan qanunun 8.1-ci maddəsinə əsasən, beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınların bu Qanunun 7-ci maddəsinə uyğun şərtlər daxilində yaş həddi hər uşağa görə 1 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Dəyişikliyə əsasən, beş və daha çox uşaq doğub, övladlığa və (və ya) qəyyumluğa götürüb onları səkkiz yaşınadək tərbiyə etmiş və böyütmüş qadınların bu Qanunun 7-ci maddəsinə uyğun şərtlər daxilində yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ olacaq.

Qeyd edək ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsinə əsasən, 60 yaşına çatmış qadınların fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var. Qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Qanuna dəyişiklik layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

# 17 May Ümumdünya İnformasiya Cəmiyyəti Günüdür

## *Dövrün çağırışları informasiya cəmiyyətinin formalaşmasını labüdləşdirib*

**Dünyada ən dinamik inkişaf edən informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsi respublikamızda da prioritet sahə olmaqla, daim diqqət və qayğı ilə əhatə edilib. Azərbaycan Respublikasının Prezidenti, Cənab İlham Əliyev dünyada gedən prosesləri uzaqgörənliklə qiymətləndirərək, İKT sektorunun, informasiya və biliklər iqtisadiyyatının inkişafını ölkəmizdə prioritet sahə elan etmişdir. Azərbaycanda bu sahənin inkişafı ilə bağlı milli strategiyalar, strateji yol xəritələri, dövlət proqramları, qanunvericilik aktları qəbul edilib.**

Bu gün iyirmi birinci yüzillikdə bəşəriyyətin yeni inkişaf dövrünə qədəm qoyması yeni cəmiyyətin formalaşmasını labüd edib. Belə bir dövrdə beynəlxalq aləm - 17 may tarixini Beynəlxalq Telekommunikasiya və Rabitə, həmçinin, Ümumdünya İnformasiya Həmrəyliyi Gününün elan olunması kimi qeyd edir. Beynəlxalq Telekommunikasiya və Rabitə Günü Beynəlxalq Elektroəlaqə İttifaqı İdarəedici Sovetinin 1969-cu il qərarı ilə təsis olunub. Ümumdünya İnformasiya Cəmiyyəti Günü isə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 27 mart 2006-ci il tarixdə elan edilib. Bu tarixin seçilməsi də təsadüfi deyil. 1865-ci ilin həmin günündə Parisdə 20 Avropa ölkəsinin nümayəndələri Beynəlxalq Teleqraf İttifaqının yaradılması haqqında müqavilə imzalayıblar.

Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da bu gün 17 May Ümumdünya İnformasiya Cəmiyyəti Günü kimi qeyd olunur. Müstəqil dövlətimizdə zamanın və dövrün çağırışlarına uyğun olaraq Azərbaycanda informasiya cəmiyyətinin formalaşması strateji məsələ kimi qarşıya qoyulmuş və müasir cəmiyyətə inteqrasiya səviyyəsi dövlətin iqtisadi inkişaf dərəcəsini əks etdirən amilə çevrilmişdir. Azərbaycanda bu sahənin əsasını Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində qoyub. Ümummilli Lider Heydər Əliyevin 2003-cü ildə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" 10 il ərzində görüləcək işlərin ümumi xəttini müəyyənləşdirdi. Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması haqqında Sərəncam imzaladı. Daha sonra 21 oktyabr 2005-ci il tarixli "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nı imzaladı. Buna uyğun olaraq, ölkəmizdə informasiya cəmiyyətinin qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.



### VƏTƏNDAŞ MƏMNUNLUĞUNA HƏDƏFLƏNƏN LAYİHƏLƏR

Azərbaycan Prezidenti İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. Beləliklə, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN Xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərmək, "ASAN Xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. 2012-ci ildən başlayaraq, Bakının bir neçə rayonunda "ASAN Xidmət" mərkəzləri sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı.

Bu illər ərzində "ASAN Xidmət" bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. "ASAN xidmət" nümunəyə çevrilib. Sosial təminat sahəsində buna bənzər DOST mərkəzləri fəaliyyətə başlayıb. Dövlət başçısının vurğuladığı kimi, "ASAN xidmət" kimi, DOST mərkəzləri də bütün ölkəmizi əhatə edəcək.

Artıq vətəndaşlar bir sıra dövlət xidmətlərindən heç bir bürokratik əngəl, zaman, məkan problemi olmadan rahat şəkildə istifadə edə bilirlər. "Bir pəncərə" prinsipinə əsaslanan "Elektron Hökumət" portalının fəaliyyəti, "ASAN Xidmət" modeli ölkəmizin bu sahədə uğurla həyata keçirilən və vətəndaş məmnunluğuna hədəflənən layihələrdir.

### İNFORMASİYA MƏKANININ TƏHLÜKƏSİZLİYİ DAHA ETİBARLI ŞƏKİLDƏ QORUNUR

Ölkəmizdə informasiya cəmiyyətinin, elektron dövlətin, informasiya və biliklər iqtisadiyyatının dayanıqlı inkişafı istiqamətində genişmiqyaslı kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərin nəticəsi olaraq, Azərbaycanda genişzolaqlı internet infrastrukturu inkişaf etdirilmiş, vətəndaşların təhlükəsiz, keyfiyyətli və ucuz internet xidmətlərindən istifadəsinin təmin olunması istiqamətində bir sıra layihələr həyata keçirilmişdir. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş və strategiyada bu sahənin inkişafı üzrə 2020-ci ilə kimi konkret məqsəd və vəzifələr müəyyən edilmişdir. Bu strategiya informasiya cəmiyyətinin əsaslarının yaradılması, vətəndaşlar, cəmiyyət, özəl sektor və dövlət orqanları tərəfindən İKT-dən geniş istifadə, növbəti mərhələdə fəaliyyət istiqamətlərinin planlaşdırılması üçün əlverişli şərait yaratmış oldu.

Azərbaycanın telekommunikasiya peyklərinin orbitə buraxılması, ölkəmizdə kosmik sənayenin formalaşdırılması dövlət başçısının güclü siyasi iradəsindən, uzagörənliyindən və yüksək iqtisadi potensialdan xəbər verir. Bununla, ilk növbədə, Azərbaycan özünün telekommunikasiya xidmətlərinə dair ehtiyaclarını ödəyir, informasiya məkanının suverenliyini, təhlükəsizliyini daha etibarlı şəkildə qoruya bilir.

Yüksək texnologiyaların ölkəmizdə inkişafı "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının hazırlanmasına zəmin yaradıb. Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir. Bu gün işğaldan azad edilmiş ərazilərdə də "smart-city", "smart-village" yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası qurulur. Əlbəttə ki, bu layihənin məqsədi kəndlərdə əhalinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə rahat çıxışı təmin etmək, eləcə də xidmət, qazanc və dövlət xidmətlərindən yararlanmaq baxımından kənd və şəhər arasındakı fərqi aradan qaldırmaqdır. Yüksək texnologiyalara əsaslanan "Ağıllı kənd" və "Ağıllı şəhər" layihəsi ən qabaqcıl texnologiyaların tətbiqidir. İlk "Ağıllı kənd" layihəsi Zəngilan rayonunun Ağalı kəndindən start götürüb.

İnformasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. İndi bu sahədə ölkəmizdə uğurlu işlər görülməkdədir. Bu gün ölkəmizdə də təhlükəsizlik məsələləri və eləcə də, internetin və informasiya cəmiyyətinin inkişafı diqqət mərkəzindədir. Belə ki, Azərbaycanda informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi qəbul edilib.

***Zümrüd BAYRAMOVA***

# "Şuşada tədbirlərin keçirilməsi həm də dünyaya verilən sülh mesajıdır"

**"Vətən müharibəsindən sonra ölkə başçısı Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə dəfələrlə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda müxtəlif obyektlərin təməlqoyma mərasimlərinə, açılışlarında və s. tədbirlərdə iştirak edib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov bildirib.**

Onun sözlərinə görə, hər səfər zamanı yeni bəyanatlar olur, yeniliklərlə qarşılaşırıq: "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Şuşa kiçik muzey şəhəridir. Hər birimizin qəlbində Şuşa ilə bağlı xüsusi bir hiss var. Şuşa cənab Prezidentin göstərişi ilə dirçəlməyə başlayıb. Şuşa dünyanın ən gözəl turizm mərkəzlərindən birinə çevriləcək. Burada klassik görkəmlə çağdaş arxitekturanın harmoniyası mövcud olacaq. Bu həm turizm əhəmiyyətini artıracaq, həm də mədəni dəyərlərini artıracaq. "Xarıbülbül" festivalı bir neçə ildir ki, keçirilirdi. İşğaldan azad edildikdən sonra ilk dəfə keçən il keçirilən "Xarıbülbül" festivalı bu il də öz möhtəşəmliyi ilə yadda qaldı. Festivalın açılışında dövlət başçısı İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak ediblər. Bu, festivalın əhəmiyyətini daha da artırdı. "Xarıbülbül" festivalında dost, qardaş ölkələrin folklor ansamblları iştirak etmişlər. Bu cür festivalların, qurultayların Şuşada keçirilməsi onun dünya səviyyəsində əhəmiyyətini artırmış olur. Şuşa təkcə Azərbaycanın mədəniyyət paytaxtı yox, Qafqazın incisi yox həm də dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcək. Bunun üçün də lazım olan bütün addımlar atılır. Şuşada bu cür tədbirlərin keçirilməsi həm də dünyaya verilən sülh mesajıdır. Bu gün hər bir azərbaycanlı tolerantdır, multikultural dəyərləri özündə ehtiva edən bir şəxsdir. Bu məsələlər dövlətimizin çox vacib siyasi məsələlərindən biridir. Mədəni dəyərlərimizin təbliğ olunmasında Azərbaycanın bir çox tarixi abidələrlə zəngin olan şəhərləri var. Şuşa da onlardan biridir. Yaxın zamanda özünün tarixi görkəmi ilə, zəngin abidələri ilə bizim dünyada təmsil edəcəyimiz şəhərlərdən birinə çevriləcək".




***A. İlhamqızı***

# Tereza Hamlin: “Mən Azərbaycanı sevirəm və həmişəlik burada qalmaq istərdim”

## *“Azerbaijansocks” şirkətinin təsisçisi Azərbaycandakı 18 illik həyatı haqda maraqlı faktlar açıqlayıb*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*



Amerikalı Tereza Hamlin üçün Azərbaycan ikinci evə çevrilib. O, ingilis dilini öyrətmək üçün Azərbaycanın şimal bölgəsinə gəlib və müqaviləsi bitəndən sonra ABŞ-a qayıtmaq istəməyib. Tereza ənənəvi yerli milli naxışlı corabların toxunma sənəti ilə məşğul olmaq qərarına gəldi və çox keçmədən ”Azerbaijanbajanisocks” şirkətini qurub. Bu gün bu şirkətdə Azərbaycanın müxtəlif bölgələrindən olan usta xanımlar çalışır ki, onlar üçün corab toxuması əlavə gəlirə çevrilib. Tereza deyir ki, onların məhsulları təkcə Azərbaycanda deyil, əl işlərinin yüksək qiymətləndirildiyi xarici ölkələrdə də məşhurdur. Tereza Hamlin ”Moskva-Bakı” portalına müsahibəsində Azərbaycandakı həyatından və burada əbədi qalmaq arzusundan danışıb. Müsahibəni oxucularımızia təqdim edirik.

***- Necə oldu ki, illər əvvəl bir amerikalı gənc Azərbaycana köçməyə qərar verdi?***

- Mən ABŞ-da universitetdə oxuyanda Bakıda doğulmuş bir dostum var idi, ölkəsi haqqında çox danışırdı. Mən ingilis dili müəllimi olacaqdım, amma universiteti bitirdikdən sonra dünya ölkələrinin birində bir ay ingilis dili dərsi verməli idik. Azərbaycan haqqında çox eşitdiyim üçün artıq qiyabi olaraq bu ölkəni seçdim və dostumun dəstəyi ilə ora getməyə qərar verdim. Mən Azərbaycanın Qusar şəhərində məskunlaşdım, Şahdağın ətəyindəki kəndlərin birində ingilis dilindən dərs deyirdim.

***- Yeni ölkəyə köçmək çətin idi? Yeni şərtlərə necə uyğunlaşdınız?***

- Mən 18 ildir burada yaşayıram və bunun necə baş verdiyini unutmamışam. Yadımdadır, bəzi çətinliklər var idi, amma müəllimlik kursunda yaxşı insanlar işləyir, yerli həyat şəraitinə uyğunlaşmağa kömək edirdilər, ölkənin adət-ənənələrindən danışırdılar. Ona görə də deyə bilmərəm ki, Azərbaycanda yeni həyatın qurulması mənim üçün çətin proses olub.

***- Əvvəlcə burada sizi nə təəccübləndirdi, amma indi adiləşib?***

- Hər şeydən çox biri! İlk gələndə mənə elə gəldi ki, burada çox ciddi insanlar yaşayır, bu, Amerikada böyümüş, hətta yad adamlara belə gülümsəyən mənim üçün tamamilə qeyri-adi idi. Hətta burada hamı bir-birini diqqətlə nəzərdən keçirir (gülür), amma Amerikada kiməsə baxmaq ədəbsiz hesab olunur. Bəzi yerli sakinlərin qaydaları pozaraq maşın sürmələri, daha doğrusu manevr etmələri əvvəlcə təəccüblü və hətta qorxulu idi. Bu gün mən buna öyrəşmişəm. Bəzən hətta fikir verirəm ki, mən özüm də azərbaycanlılar kimi maşın sürürəm! ABŞ-da qeyri-rəsmi geyinməyi xoşlayırlar, Azərbaycanda isə hətta dağ kəndində gəzməyə belə kişilər kostyum geyinir, qadınlar isə ən gözəl paltar, hündürdabanlı ayaqqabı geyinirlər. Ətrafdakı hər kəs çox gözəldir, həmişə səliqəli geyinirlər. Yadımdadır, ABŞ-a ilk dəfə evə gedəndə uzun müddət başqalarına öyrəşə bilmirdim, mənə elə gəlirdi ki, ətrafdakıların hamısı səliqəsiz geyinib. Mən özüm artıq amerikalılar kimi geyinə bilmirəm. Etiraf edim ki, hələ də hündürdaban çəkməyə öyrəşməmişəm, amma geyimimə daha çox fikir verməyə başlamışam, indi bütün Azərbaycan qadınları kimi geyinməyi xoşlayıram.

***- Azərbaycan corablarından biznes ideyası necə yaranıb?***

- Əslində, mən bu corablar haqda hələ ABŞ-da olarkən Qusarda eyni işlə məşğul olan amerikalıdan alıb öyrənmişəm. Və mən onları çox bəyəndim. Qusara köçəndən sonra yerlilərlə dostluq etdim, onlardan bu corablar haqqında soruşmağa başladım. Çox təbii və isti idilər! Sonra xarici qonaqlar yanıma gəlməyə başladılar və hamısı soruşdular ki, bu rayonda yaşayan ləzgilərin toxuduğu corabları haradan almaq olar. Bazarda çox seçim yox idi və bundan əlavə, çoxları bunu hədiyyə olaraq istəyirdi, ona görə də bu corablar çox gözəl olmalı idi. Sonra dostlarım məndən onlara belə corablar toxuya biləcək adam tapmağımı istədilər. Bu, heç də çətin deyildi, çünki kənddə hər bir qadın belə corablar toxuya bilər. Bir neçə cüt sifariş verdim, sonra daha çox. İstəyənlər çox idi, sonra düşündüm ki, niyə bundan biznes qurmayaq? Bundan əlavə, bu vaxta qədər öz işimdə ”ixtisar”a düşmüşdüm. Anladım ki, mən qalmaq və vacib bir şey etmək istəyirəm.





***- Yerli sakinlər, yəqin ki, belə bir işin uğuruna dərhal inanmadılar?***

- Bəli, çoxları fikirləşirdilər ki, onların corabları xaricdə kimə lazım ola bilər? Dedilər ki, yəqin ki, hər yerdə belə corablar toxuyurlar. Mən onlara dedim ki, heç yerdə belə qeyri-adi, orijinal naxışlar yoxdur və ona görə də yerli corablar bütün dünyada məşhurlaşa bilər.

***- Bu biznes nə dərəcədə gəlirli oldu?***

- Toxuyanlarımız çoxdur və əksəriyyəti dağ kəndlərində yaşayır. Nə qədər çox toxusan, bir o qədər çox qazanırsan, çünki bu məhsula xaricdə böyük tələbat var. Bundan əlavə, yerli sənətkar qadınlar onları qışda, tarlada və ya evin ətrafında heç bir işləri olmayanda toxuyurlar. Mənə gəlincə, bu işdə çox qazanmadım, amma əlimdə olan mənə kifayətdir.

***- Azərbaycanda şəxsi həyat qura bildinizmi?***

- Yox, mən hələ ailə qurmamışam. Azərbaycanlıların gözəl bir atalar sözü var, mən onu çox sevirəm. Burada deyirlər- ”Subaylıq sultanlıqdır”. Bu, ”subayların həyatı sultanın həyatına bənzəyir” kimi tərcümə oluna bilər.

***- Gələcəklə bağlı planlarınız nədən ibarətdir? Qalacaqsınız, yoxsa vətənə qayıdacaqsınız?***

- Mən Azərbaycanı sevirəm və həmişəlik burada qalmaq istərdim. Mən hətta Azərbaycan vətəndaşlığını da almaq istərdim, amma təəssüf ki, burada ikili vətəndaşlığa icazə verilmir, mən də Amerika vətəndaşlığından imtina etmək istəməzdim. Burada özümü o qədər rahat hiss edirəm ki, indi başqa ölkədə həyatımı təsəvvür edə bilmirəm.

***- Yerli xörəkləri bişirməyi öyrənmisiniz?***

- Yalnız ən yüngül yeməklər, məsələn, kukyu və ya plov. Amerikalıları təəccübləndirmək üçün ABŞ-a evə gedəndə onları bişirməyi sevirəm. Əslində Azərbaycanda yeməklərin əksəriyyəti çətin hazırlanır, çox vaxt və bacarıq tələb olunur. Və mənim qətiyyən səbrim yoxdur! Bundan əlavə, azərbaycanlılar kimi dadlı olması üçün illərlə məşq etmək lazımdır. Qutablar, dovğa, ”üç bacı” dolması və başqa yeməklər burada elə dadlı bişirilir ki. Azərbaycanlıların inanılmaz ləzzətli mətbəxi var və mən ABŞ-a gedəndə onlar üçün çox darıxıram. Bundan əlavə, Azərbaycanda bütün məhsullar təbii və dadlıdır. Məsələn, Amerikada belə dadlı süd məhsulları tapa bilməzsiniz. Həm də dağ kəndlərində hazırlanan qatiq və müxtəlif pendirlərdən orada yoxdur!

***- Yəqin ki, artıq bütün Azərbaycanı gəzmisiniz? Ən sevdiyiniz yerlər haqqında bizə məlumat verə bilərsinizmi?***

- Hansınısa xüsusi qeyd etmək çətindir. Qusarı, Qəbələni, Astaranı, Zaqatalа, Şəkini sevirəm, dağları çox sevirəm. Maraqlıdır ki, Azərbaycanda bütün bölgələr maraqlı və bir-birindən fərqlidir. Keçən il yeni təcrübə axtarışında dostlarımla birlikdə Azərbaycanın çətin gediş-gəlişi olan yerlərinə, turistlərin nadir hallarda gəldiyi ən ucqar kəndlərə gəzinti turuna çıxdım. Və məlum oldu ki, Azərbaycanda 18 il yaşadıqdan sonra hələ də bu ölkədə çoxlu yeni və maraqlı şeylər kəşf edə bilərsiniz.

***Tərcümə - Elçin Bayramlı***

# “5-ci kolon” LGBT bayrağı altına keçdi!

*Və ya "Fəvvarələr meydanında" siyasi-cinsi azlıq şousu necə fiaskoya uğradı?*




***Artıq bir neçə gün idi ki, Qərbin bəlli dairələrinə bağlı ”Azadlıq” radiosu, ”Amerikanın səsi” kimi media qurumları ”5-ci kolonun” iştirakı ilə öz təbirlərincə paytaxt Bakıda ”kütləvi çaxnaşma”, yaxud ”itaətsizlik” aurası yaradaraq ölü müxalifəti ”dirildəcəkləri” proqnozlarını verirdilər. Hətta onların söz və ifadə azadlığı amilindən sui-istifadə etməklə sosial şəbəkələrdə apardıqları geniş reklama baxmayaraq, icazəsiz aksiyada çox az sayda adam göründü. Lakin diqqət çəkən digər məqamlar da var idi...***

### Divan-kreslodan sosial şəbəkələrə doğru ”siyasətçiliklə” məşğul olan ”5-ci kolon” təmsilçiləri LGBT bayrağına təzim edirlər!

Beləliklə, aparılan bir neçə günlük təbliğata rəğmən icazəsiz aksiyada ”etirazçılardan” daha çox özlərini ”jurnalist” kimi göstərən, müxtəlif rəngli gödəkcələr geyinmiş qızlar göründü. Üstəlik, orada milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd olan utancverici davranışlar, şüarlar da müşahidə olundu. Təkcə LGBT bayrağının qaldırılması və ”Petuxlar mafiya sisteminə qarşı” tipli ədəbsiz şüarın özü bu dırnaqarası çevrənin nəyə sahib olduqlarını bütün çılpaqlığı ilə sərgilədi. Bu, həm də o deməkdir ki, hazırda divan-kreslodan sosial şəbəkələrə doğru ”siyasətçiliklə” məşğul olan ”5-ci kolon” təmsilçilərinin özləri də LGBT bayrağının altına keçid etməkdədirlər. Misal üçün, AXCP sədri Əli Kərimlinin bu ”bayrağa” daxili aləmində nə qədər dərindən təzim etməsini çoxları yaxşı bilirlər.

### Qrant yemək üçün ən rəzil addımlara belə getməyə hazır olduqlarını sərgilədilər

Habelə, daha bir fakt budur ki, ölkəmizdə özünü tanıyan heç bir müxalifət partiyası belə əməllərə yol verməzdi ki, AXCP və onun timsalındakı xırda qurumlar qrant yemək üçün ən rəzil addımıara belə getməyə hazır olduqlarını sözügedən aksiya xarakterində nümayiş etdirdilər.

Yuxarıda da qeyd etdiyimiz kimi, bu uğursuz sirk tamaşası daha çox uğursuz gey paradına bənzədi ki, əslində orada iştirak edən azsaylı ünsürlər kənardan çox gülünc təsir bağışladılar. Eyni zamanda, ABŞ-ın Dövlət departamentinin (həmçinin səfirliyinin), habelə onlardan təlimat alan NED təşkilatının nəzarətində olan media qurumları - ”Amerikanın səsi” və ”Azadlıq” radiolarının cəhdləri bir neçə ay əvvəl baş vermiş Qazaxıstan olaylarına bənzər hadisələrə transfer olunmasına doğru yönəlmişdi.

### ”Azadlıq” və ”Amerikanın səsi” radioları ”Sputnik”in Qazaxıstan variantından istifadə etmək istələlər də...

Belə ki, biz burada vaxtilə ”Sputnik” agentliyinin Qazaxstandakı hadisələr zamanı tutduğu qızışdırıcı mövqeyini müqayisə edə bilərik və həmin müqayisənin adları çəkilən radioqurumların mövqeləri ilə paralel bənzərliyini görmüş olarıq. Fakt budur ki, həmin mvqelərin heç birini jurnalistikaya aid etmək olmaz. Bu birbaşa başqa dövlətin daxili işlərinə qarışmaq xarakterli təbliğat kimi qiymətləndirilə bilər.

Yeri gəlmişkən, icazəsiz aksiyada polisin təmkini, qanunlar çərçivəsindəki fəaliyyətini yüksək dəyərləndirmək olar. Belə ki, aksiya iştirakçıları polisin ünvanına açıq şəkildə tərbiyəsiz və təhqiramiz şüarlar səsləndirmələrinə baxmayaraq (”Polis olma, adam ol” və s.), qanun mühafizəçiləri heç bir zorakılığa yol verilmədilər və kifayət qədər peşəkarlıqları ilə seçildilər.

### ”Fəvvarələr meydanı” isə onların siyasi ölüm dayanacaqları, yaxud birdəfəlik fiaskoları oldu!

Təbii ki, belə bir uğursuz siyasi şoudan maliyyə əldə edənlər yəqin ki, ABŞ-dakı və Qərbdəki ağalarının qarşısında cavab verməli olacaqlar. Çünki planları baş tutmamış qaldı və ən əsası, Azərbaycan xalqı belə siyasi idbarçılıqları, tərbiyəsizlikləri və əxlaqsız davranışları rədd etdi. Artıq bu dəfə də sübut olundu ki, Azərbaycan dövlətinin dayaqları gerçək xalq-iqtidar vəhdətinə söykənib və heç bir xarici-daxili qüvvə öz kirli məqsədlərinə qətiyyən çata bilməyəcəklər. ”Fəvvarələr meydanı” isə onların siyasi ölüm dayanacaqları, yaxud birdəfəlik fiaskoları oldu!

***Rövşən RƏSULOV***




# Politoloq: “5-ci kolon” əlaltı funksiyasını yerinə yetirir

**“Azərbaycanın son illər həyata keçirdiyi müstəqil xarici siyasət xüsusilə də, 2020-ci ilin sonlarında erməni təxribatlarına cavab olaraq başlatdığı 44 günlük Vətən müharibəsi ilə Cənubi Qafqazda maraqları olan böyük güclərin uzun illər ərzində durduqları planlara zidd nəticələr ortaya qoymuş oldu. 2020-ci ilin sonlarında Azərbaycan Cənubi Qafqazda yeni hərbi siyasi konfeqrasiya formalaşdırdı, yeni reallıqlar yaratdı”. Bunu politoloq Anar Əliyev ”Səs” qəzetinə açıqlamasında deyib.**

Onun sözlərinə görə, bu reallıqlar bir çox dövlətlərin heç də maraqlarına uyğun addımlar deyildi: ”Bunları əsas götürərək həmin dövlətlər tərəfindən müxtəlif vasitələrlə Azərbaycana təzyiq mexanizmləri işə salındı, xüsusilə də, daxildə mövcud olan və ayrı-ayrı dövrlərdə müxtəlif maliyyə mənbələrindən maliyyələşdirməyə çalışdıqları qüvvələr vasitə ilə Azərbaycan daxilində narazılıqlar, özbaşınalıqlar, anarxiya formalaşdırmaq və bununla da Azərbaycanın yeni yaratdığı reallıqlara təsir etmək və öz maraqlarını təmin etməyə çalışdılar. Xüsusilə qeyd etmək istəyirəm, Vətən müharibəsindən sonra keçən dövr ərzində Azərbaycanda bir sıra qüvvələrin ölkəmizdə insan hüquq və azadlıqları ilə bağlı məsələləri müzakirəyə çıxarmaları bu istiqamətdə Azərbaycan cəmiyyətində əldə olunmuş möhtəşəm birliyi poza biləcək şübhə toxumları səpməyə çalışmaları onu deməyə imkan verir ki, bəli, müxtəlif dövrlərdə ayrı-ayrı güclər tərəfindən Azərbaycan daxilində bu proseslərə start verilibdir. Təəssüf ki, son günlər Azərbaycanda bu istiqamətdə addımlar daha da genişlənib, xüsusilə ilə ”5-ci kolon” nümayəndələri kimi qeyd olunan şəxslər tərəfindən Azərbaycanda insan hüquqlarının pozulması barədə hay-küylü informasiyalar yaymaları və bütün bunların Azərbaycanın Ermənistanı Cənubi Qafqazda davamlı sülhün əldə olunmasına məcbur etdiyi indiki dövrdə baş verməsi də heç də təsadüf sayıla bilməz. Çünki Azərbaycan müstəqil xarici siyasət yeritməklə yanaşı, həm də Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqların tələblərinə uyğun olaraq Ermənistanı addımlar atmağa məcbur edir. Ermənistanın havadarları, Ermənistan üzərindən Cənubi Qafqazda oyunlar quran, Azərbaycana daim təzyiqlər etməyə çalışan dövlətlər də bununla barışmaq istəmirlər”.

A.Əliyev hesab edir ki, məkrli qüvvələr özlərinin daxildəki əlaltılarını işə salmaqla və onları aktivləşdirməklə Azərbaycanın mövqeyini zəiflətməyə çalışırlar: ”Azərbaycan artıq uzun illərdi Cənubi Qafqazda xüsusilə də Qarabağ problemi ilə bağlı məsələlərdə daim Azərbaycan dövlətinin, xalqının maraqlarını əsas götürərək bu maraqlar prizmasından çıxış etdiyi üçün demək olar ki, mütəmadi olaraq ayrı-ayrı güclər, ayrı-ayrı strukturlar, beynəlxalq institutlar tərəfindən bir çox hallarda əsassız olaraq tənqidlərə məruz qalırdı. İndiki dövrdə də bu addımların atılması eyni ssenarinin işə düşdüyünü göstərir. Ancaq Azərbaycan cəmiyyəti artıq kifayət qədər siyasi prosesləri beynəlxalq güclərin Azərbaycanda və Cənubi Qafqazdakı maraqlarını və onun mahiyyətini düzgün dərk etməyə bacaran yetkin bir cəmiyyətdir. Bu mənada cəmiyyətin əlaltı funksiyasını yerinə yetirən ”5-ci kolon”un nümayəndələrinin xüsusilə də, ermənilərə gedib çatan, ermənilərə söykənən qaranlıq fondların maliyyəsi əsasında fəaliyyət göstərən şəxslərin pozucu təxribatçı addımlarına, çağırışlarına cavab verməyib və bundan sonrada verməyəcək. Həmin qüvvələr nail olmaq istədikləri arzularına bu dəfə də çata bilməyəcəklər və Azərbaycan dövləti qısa bir müddət ərzində ortaya qoyduğu güc və iradə ilə Ermənistanı məcbur edəcək ki, mövcud reallıqlar istiqamətində addımlarını davam etdirsin və Cənubi Qafqaza davamlı sülh gəlsin”.

***G. Ağakərimova***

## “Xarici qüvvələrin məkrli istəklərinin reallaşmasına imkan verilməyəcək”



**”İndiki dünyada güc sahibi olan bəzi dövlətlər, ayrı-ayrı qeyri-dövlət qurumları dünyanın müxtəlif bölgələrində maraqlarını təmin etmək, təsir rıçaqlarını gücləndirmək savaşındadırlar. Bölgələrdə, regionlarda bu geopolitik savaşdan öz çıxarları və dünyada söz sahibi olmaları üçün maksimum yararlanmağa can atırlar”. ”Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirib. Onun sözlərinə görə, Azərbaycan bölgədə söz sahibi olan dövlətdir: ”Xüsusilə İkinci Dünya Müharibəsindən sonra ən uğurlu hərbi əməliyyatlara imza ataraq dünyanın diqqətini özünə cəlb etməsi, bu bölgədə maraqlarını qoruyub-saxlamaq istəyən qüvvələri tədirgin edir. O zaman istəklərini reallaşdırmaq üçün ölkə daxilində siyasi dəllallar ən yaxşı vasitədir. Milyonlar xərcləyib milyardlar qazanan qeyri-dövlət qurumları da, klanlaşmış qara biznesçilər də bölgədəki nüfuzlarını itirməmək üçün işimizdəki belə pul, mal dövlət düşkünlərindən məharətlə istifadə edirlər. Bu, təkcə Azərbaycana qarsı deyil, inkişaf etməkdə olan əksər dövlətlərə qarsı aparılan gizli oyunların tərkib hissəsidir. Nə yazıqlar ki, digər xalqlarda olduğu kimi bizim də xalqın içində şərəfini, mənliyini dünya malına satmağa hazır olan mənşəyi naməlum adamlar var və onlardan bu və digər formada istifadə edirlər. Əminəm ki, xalqımızın mütləq əksəriyyətinin milli və dövlətçilik maraqları ətrafında sıx birləşməsi və dəmir yumruğun daha da möhkəmlənməsi nəticəsində xalq olaraq xarici qüvvələrin məkrli istəklərinin reallaşmasına imkan verilməyəcək”.**

***Gülyana***

TƏRS BAXIŞ+AKTUAL

**News.am adlı erməni saytında Ermənistan silahlı qüvvələrinin hazırlığı üzrə əsas iş şöbəsinin sabiq rəisi, general-mayor Valerik Koçaryanın bəyanatı təəccüb və istehza doğurub. SİA adıçəkilən media qurumuna istinadən xəbər verir ki, erməni general-mayoru sərsəm iddiası ilə gündəmə gəlməklə 44 günlük müharibədə Azərbaycanın Ermənistandan daha çox itki verdiyini bildirib və...**

# Erməni generalı Azərbaycana qarşı "3-cü dünya müharibəsi" elan etdi



Və sən demə, Ermənistan Azərbaycanla sülh sazişi imzalamağa tələsməməliymiş (?!).

Əslində, sırf erməni xəstəliyinə xas olan sözügedən "analitik nəticə" qarşı tərəfdə bu kimi çoxsaylı sərsəmlərin olduğunu sübuta yetirir, həmçinin onların fikirlərinin ciddi qəbul edilməməsi arqumentini daha çox qabardır. Lakin digər tərəfdən, bu söhbətdə erməni yüksək rütbəli zabitinin yalnız axmaqlığını deyil, həm də başqa tərəfini analiz etmək mümkündür.

Beləliklə, sözügedən bəyanatda genearl-mayor Valerik Koçaryan yalnız bir məsələdən doğru nəticə çıxarıb - bəli, Azərbaycan həqiqətən də sülh sazişinin tezliklə imzalanmasını istəyir, tələb edir. Ancaq həmin tələbin səbəbini araşdırmır. Səbəb isə budur - regionun sürətli inkişafı, insanların sülh şəraitində yaşamaları və s.

### Onun hərbçi olması, üstəlik, general paqonları daşıması heç də yüksək dərəcəli ağıllı ünsür olmasından xəbər vermir

Lakin Koçaryanın 44 günlük müharibədə itkilər barədə danışması, guya azərbaycanlıların ermənilərdən "daha çox" itki verməsi barədə sərsəmləmələri göstərir ki, onun hərbçi olması, üstəlik, general paqonları daşıması heç də yüksək dərəcəli ağıllı ünsür olmasından xəbər vermir. Bəli, müharibələr itkisiz olmur və Azərbaycanın mərd oğulları torpaqlarını işğaldan azad etmək üçün Vətənin bütövlüyü naminə canlarını fəda etməkdən çəkinmədilər. Amma belə bir sərsəm iddia ilə də çıxış etmək, əslində, hər şeyi bütün çılpaqlığı ilə ortalığa qoyur.





Yəni Valerik Koçaryan unudur ki, 44 günlük müharibə zamanı məsul olduğu şöbəsi erməni əsgərlərini kütləvi şəkildə güclü, müasir, 5-ci nəsil Azərbaycan Ordusunun qarşısına çıxarmaqla onlara real ölüm hökmlərini kəsirdi. Təkcə 44 günlük müharibənin rəsmi videoxronikaları, sənədləri, xüsusilə erməni hərbçilərinin panik davranışları, döyüş meydanından qaçışları özü-özlüyündə Ermənistan ordusunun texnika və canlı qüvvə baxımından istər ondakı, istərsə də indiki "səviyyəsini" sübuta yetirir.

## Valerik Koçaryanın axmaq iddiası: "Ordumuz ayağa qalxana qədər Azərbaycan sülh sazişini imzalamağa çalışır"





Daha bir sərsəm iddia:

**"Azərbaycanlılar yaxşı bilirlər ki, ermənilər döyüşmək üçün birləşəndə onlar bacara bilməyəcəklər..."**

Yeri gəlmişkən, erməni general-mayoru elə danışır ki, demə qənimətlər parkı Bakıda deyil, İrəvanda açılıbmış və indi də o, gəmin parkdan "qalib ruhlu" fikirlər səsləndirir. Üstəlik, Valerik Koçaryan onu da unudur ki, müharibədən sonra Azərbaycan bu gün də özünün hərbi qüdrətini artırır, ordu sıralarını gücləndirir, onun ölkəsi isə çabalamaqda, məhvə doğru sürüklənməkdə davam edir və bundan sonrakı 100 ildə çətin ki, ayağa qalxa bilsin, əlbəttə ki, sülh sazişinə imza atılmazsa!

Təəssüf ki, belə axmaq generallar korpusu Ermənistanda çoxdur və Koçaryan da onlardan biri kimi növbəti iddialarını irəli sürür. SİTAT: "Erməni ordusu müharibəni uduzmayıb, o yalnız qarşısına qoyulan tələbləri yerinə yetirib. Sadəcə güclər bərabər olmayıb. Azərbaycanı Türkiyə ruhlandırırdı, əgər tək olsaydı Ermənistana və "artsaxa" qarşı döyüşlərdən qalib çıxa bilməzdi. Bilirsiniz Azərbaycan nəyə görə sülh sənədini tez imzalamağa çalışır? Ona görə ki, onlar çox sayda itki veriblər, halbuki bu barədə danışmaq istəmirlər. Ordumuz ayağa qalxana qədər Azərbaycan sülh sazişini imzalamağa çalışır. Azərbaycanlılar yaxşı bilirlər ki, ermənilər döyüşmək üçün birləşəndə onlar bacara bilməyəcəklər..."

### Azərbaycanın hərb maşınının dişləri ən kəsici ülgücdən də itidir!

Beləliklə, general-mayor Koçaryanın danışıqları, daha dəqiq desək sərsəmləmələri elə səslənir ki, guya İrəvanda fasiləsiz şəkildə mitinq edənlər müharibə vaxtı övladları həlak olan erməni valideynləri deyilmiş.

Bu gün Ermənistandakı situasiyanı nəzərdən keçirəndə Valerikin və onun kimi revanşistlərin fikirlərindən belə bir məntiqi nəticəni də hasil etmək olar - onlar Azərbaycana qarşı müharibə çağırışları edərkən yenidən öz övladlarını ət maşının ağzına verməyə çalışırlar. Azərbaycan üçün isə əslində heç bir problem yoxdur, Azərbaycanın hərb maşınının dişləri ən kəsici ülgücdən də itidir!

**Rövşən RƏSULOV**

# Mətbuata dövlət dəstəyi:
# Nəyi dəyişə bilər?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Xəbər verdiyimiz kimi, Milli Məclisin iclasında Vergi Məcəlləsinə dəyişiklik layihəsi III oxunuşda qəbul olunub. Bu dəyişikliyə əsasən, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiqlənən kütləvi informasiya vasitələri məhsullarının və kitabların, (elektron kitablar istisna olmaqla) habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı ( nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı, mətbu kütləvi informasiya vasitələri məhsullarının və kitabların, o cümlədən elektron kitabların, habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyətindən (reklam xidmətləri istisna olmaqla) ƏDV tutulmayacaq.***

### ƏDV-dən azad edilən kağız və çap məhsullarının siyahısı

Nazirlər Kabineti tərəfindən idxalı ƏDV-dən azad edilən kağız və çap məhsullarının siyahısı təsdiqlənib. Bildirilib ki, idxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının, kitabların,dərslik və həmin malların nəşri ilə bağlı rulon və ya vərəqə şəklində kağızın siyahısı təsdiq edilib.

Siyahıya aşağıdakı məhsullar daxildir:

- Rulonlarda və ya vərəqlər şəklində qəzet kağızı
- Müstəlif ölçü və qramda olan yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton
- Kitabların cildlənməsi üçün tikilən kağız və karton üzlük
- İllüstrasiyalı və ya illüstrasiyasız, içində reklam materialı olan və ya olmayan qəzetlər, jurnallar və digər dövri nəşrlər
- Kitab-şəkillər, rəsm üçün və ya rənglənmə üçün uşaq kitabları
- Kitablar şəklində çap edilmiş atlaslar, divar xəritələri, topoqrafik planlar da daxil olmaqla, coğrafi və hidroqrafik xəritələr və ya bütün növ analoji xəritələr.

Göründüyü kimi, bu dəyişiklik, tək qəzetlər üçün deyil, eyni zamanda ölkədə nəşriyyat və poliqrafiya sahəsində çalışan insanlar üçün də əhəmiyyət kəsb edir. Yəni burada söhbət təkcə qəzetlərdən getmir. Amma bu, qəzetlərin yükünü kifayət qədər azaldacaq. Məlum olduğu kimi, qəzetçiliyin inkişafı üçün böyük vəsait tələb olunur. Bu aspektdən qəbul olunan dəyişiklik, Azərbaycan dövlətinin mediaya, xüsusən də mətbuatın klassik siması olan qəzetçiliyə növbəti dəstəyi kimi qiymətləndirilir. Hesab olunur ki, bu, qəzetlərin maddi durumuna müsbət təsir göstərəcək.

### Dövlət çap mətbuatının yaşaması üçün hər şeyi edir

Xatırladaq ki, çap mətbuatı ilə bağlı 2018-ci ildə dövlət tərəfindən daha bir güzəşt addımı atılmışdı. Belə ki, qəzet kağızları idxal gömrük rüsumundan azad edilmişdi. Bu, Nazirlər Kabinetinin təsdiq etdiyi "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ə əsasən reallaşmışdı.






O vaxtadək qüvvədə olan "Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"nə əsasən rulonlarda və ya vərəq şəklində ölkəyə gətirilən qəzet kağızına 0,5 faiz gömrük rüsumu tətbiq edilirdi. 2018-ci il yanvarın 1-dən isə bu növ qəzet kağızına idxal gömrük rüsumu tətbiq olunmadı. Yarımsellülozdan və saman kütləsindən büzmə üçün kağız da 0,5 faizlik idxal gömrük rüsumundan azad olundu.

Qəzet kağızının gömrük rüsumundan azad edilməsi kifayət qədər ciddi məsələdir. Məsələ ondadır ki, ölkəyə idxal edilən qəzet kağızına tətbiq edilən vergi və rüsumlar dövlət büdcəsinə elə bir gəlir də vermir. Amma bu kiçik vəsait çap media üçün həyati əhəmiyyət daşıyır. Çap mediası üçün nəzərdə tutulan hər bir güzəşt, qəzetlərin mövcudluğunu davam etdirməsi, ölkənin informasiya məkanı üçün çox böyük faydadır. Qəzet kağızının ƏDV-dən azad olunması onun qiymətinə böyük təsir göstərə bilər. Əgər qəzet kağızının qiyməti aşağı düşəcəksə, çap tariflərinə də nəzərəçarpan dəyişikliyi göstərməlidir.



Dövlət həmişə mətbuatın yaşaması, inkişafı üçün əlindən gələn hər şeyi edir. Qəzet kağızının da ƏDV-dən azad edilməsi bu istiqamətdə növbəti addımdır. Əlbəttə ki, bu qərarın qəzet və jurnalların xərclərinin azalması ilə bağlı faydası olacaq və nəticədə onlar xeyli əlavə xərcdən azad olacaqlar. Nəticədə qəzet və jurnalların, həmçinin kitabların və digər çap məhsullarının qiymətlərinin azalması da mümkün olacaq ki, bu da oxucuların onları daha rahat ala bilməsinə gətirib çıxara bilər.

### Çap mediasının başqa problemləri var

Dövlət güzətşlərinin və dəstəyinin rolu mühümdür. Lakin qeyd etməliyik ki, bu addım da təkbaşına qəzetləri böhrandan, oxucu azlığından xilas edə bilməz. Çünki burada başqa problemlər var. Bu problem qəzetlərin özündədir. Onlar dövrün tələblərinə uyğun, peşəkar və yüksək səviyyəli fəaliyyət göstərməsələr, oxucular onları almayacaq. Hər şeyi dövlətin üstünə atmaq olmaz. Qəzetlər onlar üçün edilmiş bu qədər güzəştin müqabilində özləri də addım atmalıdırlar və keyfiyyəti yüksəltməlidirlər.

Düzdür, burada problemin bir hissəsi də qəzetlərin özlərindən asılı deyil. İnternetin inkişafı print medianı bütün dünyada sıradan çıxarır. Lakin başqa ölkələrdə mətbuat hələ ki, müqavimət göstərə bilir, öz nüfuzlarını nisbətən qoruya bilirlər. Bizdə isə, qəzet və jurnallar getdikcə zəifləyir. Dövlətin yardım və güzəştləri olmasa, bizim qəzetlər dərhal sıradan çıxar. Mübaliğəyə yol vermədən demək olar ki, bu gün bizdə çap mətbuatı əsasən dövlətin çiyinlərində ayaq tutub dayana bilir.

Arzu edərdik ki, qəzet və jurnallar elə işləsin ki, onların "bu pulu verməyə dəyər" deyə düşünən oxucusu çox olsun. Onların satışdan və reklamdan gəlirləri çox olsun, onda əsl peşəkar mətbuat olar ortada və heç bir qüvvə onu sıradan çıxara bilməz. İnternet nə qədər inkişaf etsə də, hələ uzun müddət kitablara, qəzetlərə, jurnallara tələbat olacaq və olmalıdır. Bircə şərtlə ki, bu çap məhsulları səviyyəli materiallarla oxucuları cəlb edə bilsin.

Hazırda Azərbaycanda çap mediasının hazırki vəziyyəti arzuolunan deyil. Belə ki, internet medianın sürətli inkişafı qəzetlərin oxucu kontingentini minimumadək endirib. Üstəlik, qəzet-jurnal yeganə media vasitəsidir ki, onun üçün pul ödəmək lazımdır, amma oxucuların çoxu internetdən pulsuz şəkildə istənilən məlumatı ala bilir, təhlilləri və araşdırmaları oxuya bilir.

Həmçinin reklam bazarının olmaması da qəzetlərin öz maddi dayanıqlıqlarını təmin etməyə imkan vermir. O baxımdan, qəzetlərin çap, maaş-qonorar və digər xərclərini nəzərə aldıqda, onların maddi vəziyyətinin ağırlığını təsəvvür etmək çətin deyil. Şübhəsiz ki, MEDİA-nın qəzetlərə, jurnallara maddi dəstəyi olmasa, dövri nəşrlərin əksəriyyətinin mövcudluğu sual altına düşərdi.

Belə bir şəraitdə qəzet kağızının ƏDV-dən azad edilməsi qəzetlərə öz xərclərinin bir hissəsinə qənaət etmək imkanı yaradacaq. Ona görə də, bu dəyişiklik və edilən güzəşt hər cəhətdən müsbət qiymətləndirilir.

**Elçin Bayramlı**

SON SƏHİFƏ
Səs
17 may
2022-ci il

# Abituriyent intiharlarına

# SƏBƏB NƏDİR?

PSİXOLOQ DANIŞDI

"Kiçik yaş dövründən fərqli olaraq yeniyetməlik dövründə yaşlılıq hissinin meydana gəlməsi uşaqlarda özünü qiymətləndirmənin formalaşması, mənlik şüurunun inkişafına təsir göstərir. Buna görə də yeniyetmə kiçik yaşlarında olduğu kimi öz həyatına passiv münasibət bəsləmir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib. Onun sözlərinə görə, yeniyetməlik yaşında uşaqlarda öz şəxsi həyatına və şəxsiyyətinin xüsusiyyətlərinə maraq yaranır: "Bu cür maraqlar içərisində özünü qiymətləndirmə tələbatı, özünün imkan və bacarıqlarını başqaları ilə müqayisə etmə meyli özünü göstərir. İkinci şəxsiyyət dövründə valideynləri onu başqaları ilə müqayisə edəndə bu, uşaqda kinə və nifrətə çevrilir. Yaranan bu nifrət bəzən qisas alma, bəzən də "valideynlərim məni qiymətləndirmir, mən onlara lazım deyiləm" kimi düşüncələrin formalaşmasına səbəb olur".

Psixoloq sözlərinə davam edərək həmçinin qeyd edib ki, ümumiyyətlə, abituriyentlərin şəxsiyyətinin inkişafını düzgün istiqamətləndirmək üçün kiçik yaşlarından etibarən təlim fəaliyyətinin icrası ilə bağlı olan keyfiyyətlərini öncədən aşkara çıxarmaq lazımdır ki, sonda intiharla üz-üzə qalmasınlar: "Bəzən uşaqlar intihar etmədən öncə ətrafındakılara bununla bağlı sanki bir mesaj verir. İmtahan qorxusu, valideyn qorxusu və ya digər uşaqlardan ayrı düşməyi onlarda intihara meyillilik yaradır. Ona görə də övladlarımıza qarşı diqqətli yanaşmalıyıq. Bugünkü gündə xaotik şəkildə sualları əzbərləyib imtahan verən 17 yaşlı uşaqların ali məktəbi bitirdikdən sonra oxuduğu peşənin arxasınca gedəcək qədər beyninin inkişaf etmədiyini müşahidə edirik. Əgər abituriyent vaxtı valideynlər uşaqlarına bunun onların ilk uğuru olduğunu, onun qazancından daha çox özünə qiymət verməli, dərk etməli olduğunu aşılamalıdır. Valideynlər uşağa başa salmalıdır ki, əgər imtahanda uğur əldə edə bilməsə, bu, dünyanın sonu deyil. Bir sözlə, gərək vaxtında valideyn öz övladına kömək və dəstək olsun".





*L. Əlizadə*

# "Messi

## "Barselona"ya qayıtsa, xoşbəxt olaram"



"Barselona" futbol klubunun prezidenti Xuan Laporta Lionel Messinin kluba qayıtmasının tərəfdarıdır. Qol.az "Deportes Cuatro"ya istinadən xəbər verir ki, klub rəhbəri jurnalistin "Messinin geri qayıtmasını istərdinizmi" sualına "Bəli, əlbəttə istəyərəm. Xoşbəxt olaram" deyə, cavab verib.

Qeyd edək ki, bir müddət əvvəl argentinalı futbolçunun atasının "Barselona" ilə əlaqə saxladığı və Messinin mümkün qayıdışı ilə bağlı müzakirələr apardığı bildirilmişdi. Messi 2021-ci ilin yayında "Barselona"dan PSJ-yə keçib.

# Minik avtomobili yük avtomobili ilə toqquşaraq yanıb

**Beyləqan şəhərində "QAZ" markalı yük avtomobili və "Tofaş" markalı minik avtomobili toqquşub. Fövqəladə Hallar Nazirliyindən SİA-nın verilən məlumata görə, nəticədə minik avtomobilinin yanar hissələri yanıb.**

Yük avtomobili yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.



# Bəy və gəlin özlərini yandıraraq evləndi

ABŞ-da bəy və gəlin qeyri-adi nikah mərasimləri ilə sosial şəbəkələrdə gündəm olublar. SİA xarici mətbuata istinadən xəbər verir ki, hər ikisi 42 yaşında olan Qabe Cessop və Ambir Mişel dünən ABŞ-da ailə və dostlarının iştirakı ilə açıq hava mərasimində evləniblər. Cessop və Mişel mərasimdə əl-ələ gəzərək özlərini yandırıblar. Qabe Cessop görüntüləri "İnstaqram" səhifəsində paylaşıb. Bəy Cessop bu videonu izləyicilərinə "Bu atəş ömür boyu ürəyimizdə yansın" mesajı ilə təqdim edib.

Həm Cessop, həm də Mişelin peşəsinin kaskadyorluq olduğu öyrənilib. Onlar peşələrinə hörmət olaraq belə maraqlı bir şəkildə evlənməyi seçiblər.

Cütlüyün üzərindəki gəlinlik və bəy kostyumu çəkilişdə istifadə edildiyi kimi yanğından mühafizə olunub.Cütlüyün bu maraqlı toy videosunu sosial şəbəkədə 3 milyona yaxın insan izləyib.



*Ləman*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**